RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 49 (8642) CÜMƏ AXŞAMI, 4 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qalib Sərkərdənin uğurlu "yol xəritəsi" hazırdır

## İlham Əliyev postmüharibə dövründə regionun yeni inkişaf istiqamətlərini müəyyənləşdirir

**İkinci Qarabağ müharibəsində hərbi-siyasi qələbəmiz regionda yeni reallıqlar yaratmaqla yanaşı, dünya ictimaiyyətinin diqqətini Azərbaycana yönəltdi. İndi dünya Azərbaycandan, onun qətiyyətli lideri İlham Əliyevdən danışır.**

Hələ Vətən savaşı dövründə 30-a yaxın xarici KİV-ə müsahibəsi ilə Azərbaycanın informasiya müharibəsində qələbəsini təmin edən İlham Əliyev bu gün qalib Sərkərdə kimi postmüharibə dövrünün reallıqlarını izah edir və regionun inkişaf xəritəsini müəyyənləşdirir.

### Prezident təkcə Ermənistana deyil, dünya birliyinə də mühüm mesajlar verdi

Bu bir həqiqətdir ki, beynəlxalq media qurumları Azərbaycanla bağlı heç zaman indiki qədər geniş və əhatəli məlumat yaymayıblar. Əvvəllər Azərbaycan həqiqətləri ilə bağlı susqunluq nümayiş etdirən xarici KİV-in əməkdaşları indi mövcud reallığı öz gözləri ilə görür və qiymət verirlər.

Yəni ölkəmizdə gedən proseslər artıq kənardan deyil, Azərbaycana səfərlər edilməklə izlənilir. Çoxsaylı xarici jurnalistlər işğaldan azad edilmiş ərazilərimizdə olaraq ermənilərin törətdikləri vəhşiliklərin düzgün dəyərləndirilməsini aparırlar.

Fevralın 26-da İlham Əliyevin keçirdiyi mətbuat konfransında 35-dən çox xarici media orqanının 50-yə yaxın sualını dəqiqliklə, məntiqlə, faktlar əsasında cavablandırması və əsl həqiqətləri bəyan etməsi həm də dünya birliyinə bir mesaj idi. Prezident bir daha bəyan etdi ki, bölgədəki sabitlik təkcə Azərbaycan üçün deyil, bütün xalqların və ölkələrin sülhə, sabitliyə və inkişafa ehtiyacı var. Dünya ictimaiyyəti növbəti dəfə İlham Əliyevin nə qədər uzaqgörən, müdrik siyasi xadim olduğunu gördü.

Prezident əsl lider kimi, yüksək diplomatik bacarıqla beynəlxalq media qurumları vasitəsilə baş verən bütün hadisələrə aydınlıq gətirdi. Məğlub Ermənistana yenə də vəziyyətdən qurtuluş yolunu göstərdi. Qeyd etdi ki, ilk növbədə Ermənistan hakimiyyəti 10 noyabr Bəyanatının müddəalarını icra etməlidir. Əks-təqdirdə, onlar üçün daha da böyük problemlər yarana bilər. Atəşkəs və üçtərəfli Bəyanatın icrası ilə bağlı Rusiya Prezidenti Vladimir Putinin bir müddət öncə verdiyi reaksiyaya nəzər yetirsək, hər şey aydın olar. Belə ki, Rusiya Prezidentinə ünvanlanan "Ermənistan bu bəyanatın icrasından boyun qaçırmaq istəsə nə olacaq" sualına cavabında Vladimir Putin dedi ki, bu, Ermənistan üçün sui-qəsd olacaq.

İlham Əliyev həmçinin təxribat xarakterli dezinformasiyalara da ətraflı, məntiqli və dəqiq şəkildə cavab verməklə göstərdi ki, Azərbaycana qarşı belə ucuz kampaniyaların aparılması mümkünsüzdür. Çünki zaman-zaman Azərbaycana qarşı belə çirkin kampaniyalar aparılıb və onların hamısı fiaskoya uğrayıb. Bu gün isə qalib ölkəyik və real faktlara, tarixi həqiqətlərə əsaslanan təbliğat hər zaman zəfər qazanır.

### Region üçün yeni imkanlar

Prezident bölgədə uzunmüddətli sülhün təmin edilməsinin istiqamətlərini də göstərərək ümumilikdə regionun gələcək inkişafı üçün bütün imkanların mövcud olduğunu söylədi.

Ardı 4-cü səh.

# Azərbaycan ilə Pakistan regionda sülh və ədalətin tərəfdarıdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Əminəm ki, sizin səfəriniz hərbi sahədə ölkələrimiz arasında əməkdaşlığı gücləndirəcək. Bu günə qədər bu əməkdaşlıq çox səmərəli olmuşdur və biz tərəfdaşlığımızı genişləndirmək arzusundayıq.

Əvvəlcə, müharibə zamanı nümayiş etdirilən həmrəyliyə və dəstəyə görə qardaş Pakistana təşəkkürümü ifadə etmək istəyirəm.

Ardı 2-ci səh.

# Prezident İlham Əliyev Azərbaycanı uğurlu innovativ tədbirlərlə yeni zəfərlərə aparır

*Dövlət başçısı İlham Əliyev 18 yanvar 2021-ci il tarixdə Sumqayıt Sənaye Parkında iki yeni sənaye müəssisəsinin təməlini qoydu və bir yeni istehsal müəssisəsinin açılışını həyata keçirdi. Üç gün sonra Azərbaycan Respublikası ilə Türkmənistan arasında Xəzər dənizində yerləşən "Dostluq" neft və qaz yatağının birgə işlənilməsinə dair olduqca əhəmiyyətli bir razılaşma imzalandı. Ardınca bölgədə ölkələr arasında nəqliyyat kommunikasiyalarının açılması ilə əlaqədar fəaliyyətə başlandı və beynəlxalq işçi qrupunun toplantısı keçirildi. Fevralın 2-də isə Prezident İlham Əliyev Azərbaycanın 2030-cu il üçün beş əsas milli prioritetini hədəflədi. 20 fevral 2021-ci ildə çox önəmli olan Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyasının iclası keçirildi və 11 mühüm sənəd imzalandı. 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış parlaq hərbi qələbədən sonra olduqca qısa zaman kəsiyində ölkənin sürətli və innovativ inkişafına yönəlik bu yeni təşəbbüslər və fəaliyyət iqtisadiyyatın dayanıqlılığı, ölkənin inkişaf strategiyasının davamlılığı və inklüzivliyi, bütün xalqın, çağdaş və gələcək nəsillərin rifahına qulluq etməsinin təzahürüdür.*

Bax: səh. 5

# Vətəndaş məmnuniyyətinin ünvanı

## Bir il əvvəl açılışı olan Tovuz "ASAN xidmət" mərkəzində 210 minə yaxın müraciət qeydə alınıb

Prezident İlham Əliyevin ötən il mart ayının əvvəllərində respublikamzın qərb rayonlarına səfəri zamanı açılışında iştirak etdiyi ünvanlardan biri də Tovuzdakı "ASAN Həyat" kompleksi idi. Bu gün kompleksin açşılışının bir ili tamam olur.



### Karantin rejimi tələbləri çərçivəsində uğurlu fəaliyyət nümunəsi

Ötən bir il koronavirus pandemiyası səbəbindən hələ də davam edən karantin rejiminin tətbiqi ilə yadda qaldı. Bu səbəbdən vətəndaşlara xidmət sahəsində fəaliyyət göstərən dövlət qurumları da öz fəaliyyətlərini hələ ki, bu rejimin qaydaları çərçivəsində həyata keçirirlər. Tovuz "ASAN Həyat" kompleksinin ötən birillik fəaliyyəti demək olar ki, pandemiya dövrünü əhatə edib. Lakin karantin rejiminin tələbləri çərçivəsində də mərkəz öz fəaliyyətini uğurla həyata keçirib, vətəndaşlara layiqli xidmət göstərib. Bu günlərdə Tovuz "ASAN Həyat" kompleksinə baş çəkərək mərkəzin fəaliyyəti ilə tanış olduq.

Öncə onu qeyd edək ki, əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıq olan "ASAN xidmət" və "ASAN kommunal" mərkəzləri öz fəaliyyətini yüksək standartlar çərçivəsində quran və inkişaf etdirən dövlət orqanı qismində "vahid məkan" prinsipinə əsaslanır. Bütün bunlardan çıxış edərək ilk dəfə 2012-ci ildə təqdim olunan və milli brend olan "ASAN xidmət" modeli qısa müddətdə Azərbaycanda ictimai xidmət sahəsində dönüş yaratdı. "ASAN xidmət" ölkə əhalisi arasında o qədər populyarlaşdı ki, bunun davamı olaraq belə mərkəzlərin Azərbaycanın regionlarında da yaradılmasına başlanıldı, göstərilən xidmətlərin sayı və növü artırıldı.

Ardı 3-cü səh.

# Bəyanatdan irəli gələn öhdəliklər yerinə yetirilməlidir

## Əks təqdirdə Ermənistan daha ağır duruma düşəcəkdir

Xocalı soyqırımının törədilməsindən 29 il ötdü. Ermənistan 1992-ci ildən son hadisələrədək faşizm siyasəti yürüdərək Azərbaycan xalqına böyük zərbələr vurub: hərbi təxribatlar, terror aktları, dinc əhaliyə qarşı qəddarlıq, şəhər və kəndlərimizin atəşə tutulması, eyni zamanda İkinci Qarabağ müharibəsi dövründə ballistik raketlərlə dinc şəhərlərin bombalanması - bütün bunlar erməni faşizminin təzahürləridir.

Xocalı soyqırımının 29-cu ildönümü günü Prezident İlham Əliyev yerli və əcnəbi KİV nümayəndələri üçün onlayn formatda mətbuat konfransı keçirdi. Azərbaycan Prezidenti Xocalı soyqırımı və erməni vandallığı ilə bağlı fikirlərini bir daha geniş ictimaiyyətin diqqətinə çatdırdı. Dövlət başçısı eyni zamanda jurnalistlərin suallarını cavablandırarkən 44 günlük Vətən müharibəsinin nəticələrindən, Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli kapitulyasiya aktına imza atmağa məcbur qalmasından sonra bölgədə qüvvələr nisbətinin dəyişməsindən bəhs etdi.

Ardı 4-cü səh.




# Peyvəndlər bütün ölkələr üçün əlçatan olmalıdır

**Bəşəriyyətin kabusuna çevrilən koronavirus pandemiyası bütün dünyada olduğu kimi, Azərbaycanda da insanların həyat və sağlamlığını qorumaq üçün tədbirlərin görülməsini zərurətə çevirdi. Dövlətimiz ilk gündən vətəndaşlarını qorumaq məqsədilə zəruri və çevik addımlar atmağa başladı.**

Koronavirusun qeydə alındığı ilk vaxtdan Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə uyğun olaraq lazımi tədbirlər həyata keçirildi. Yeni xəstəxanalar tikildi, mövcud xəstəxanalar bərpa edilərək yenidən istifadəyə verildi. Səhiyyə ocaqları müasir avadanlıqlarla təchiz edildi, laboratoriyaların sayı artırıldı.

Dövlət tərəfindən pandemiya ilə mübarizə sahəsində həyata keçirilən təqdirəlayiq işlərdən biri də qlobal infeksiyaya qarşı vaksinasiya prosesinin tez bir zamanda start götürməsidir. Azərbaycan Cənubi Qafqazda peyvəndləməni keçirən birinci ölkə kimi prosesə yanvarın 18-də başlayıb. Avropadan bir ay sonra ölkəmizdə vaksinasiyanın aparılması işlərin düzgün, səmərəli qurulmasının təzahürüdür. Bu, ölkəmizin gücünün, vətəndaşın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunun göstəricisidir. Artıq Azərbaycanda risk qrupuna daxil olan səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər, həkimlər, polislər vaksinasiya olunub. Fevralın 17-dən etibarən yaşı 50 və daha yuxarı olan şəxslərin vaksinasiyasına start verilib və proses uğurla davam etdirilir.

Ardı 7-ci səh.

# Qarabağı tərk edən ermənilərin 70 faizi geri qayıtmayacaq

## BMT-nin hesabatına görə, onlar Ermənistanda acınacaqlı durumda yaşayırlar

**Bir müddət əvvəl Beynəlxalq Qırmızı Xaç Komitəsi məlumat yaymışdı ki, postmüharibə dövründə Qarabağa qayıdan erməni əhalinin sayı siyasi məqsədlər üçün qəsdən artıq göstərilir.**

Bunun ardınca Rusiya mediasında BMT-yə istinadən məlumat yayılıb ki, 44 günlük müharibə zamanı Qarabağı tərk etmiş ermənilərin cəmi 20 min nəfəri 2021-ci il yanvar ayının 20-dək geri qayıdıb. Məlumat BMT-nin Ermənistandakı müvafiq qurumlara sifariş etdiyi araşdırma hesabatında təsdiqlənib.

Araşdırmada qeyd olunur ki, müxtəlif hesablamalara görə, Qarabağı tərk edən ermənilərin 70 faizi geri qayıtmağı düşünmürlər. Ermənilərin artıq Qarabağdan üz döndərməsi açıq şəkildə müşahidə edilir.

Ermənistandan gələn ziddiyyətli məlumatlara rəğmən, BMT özü Qarabağı tərk edən ermənilərlə bağlı araşdırma aparıb. Qurumun daha bir istinad mənbəsi isə ikinci ölkələr olub. Məlum olub ki, son aylarda on minlərlə Qarabağ ermənisi Avropa ölkələrinə üz tutub.

Ardı 4-cü səh.

# Azərbaycan ilə Pakistan regionda sülh və ədalətin tərəfdarıdır

*Əvvəli 1-ci səh.*



Torpaqlarımızın azadlığı uğrunda apardığımız müharibə 44 gün çəkdi və Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatdı. Biz 30 ilə yaxın işğal altında olan ərazilərimizi azad etdik.

Müharibənin ilk günündən Pakistan Azərbaycana həmrəylik və dəstək nümayiş etdirdi. Pakistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunların dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının tərəfdarı kimi çıxış etdi və Ermənistanın təcavüzünü pislədi. Bu, həqiqi qardaşlıq və dostluğun nümunəsi idi. Yəqin bilirsiniz ki, Azərbaycanda insanlar Pakistan xalqı ilə, ölkənizlə bağlı öz hisslərini nümayiş etdirdilər, müharibə zamanı Pakistan bayraqlarını dalğalandırdılar. Bu, bir daha bizim birlik və qardaşlığımızı nümayiş etdirir.

Ölkələrimiz arasında əlaqələrin uzun tarixi var. Pakistan dünyanın Ermənistanla diplomatik münasibətlər qurmayan azsaylı dövlətlərindən biridir və Azərbaycanın torpaqlarının işğalı səbəbindən Ermənistanı rəsmi olaraq tanımayıb. Xalqımız bundan xəbərdardır və biz bunu çox yüksək qiymətləndiririk. Azərbaycan da, öz növbəsində, hər zaman Kəşmir məsələsi daxil olmaqla, bütün digər məsələlərdə Pakistanı dəstəkləyir. Bu dəstək tərəfimizdən BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təsisatlarda verilir. Sabah İqtisadi Əməkdaşlıq Təşkilatının videokonfrans formatında Zirvə toplantısı keçiriləcək və biz ölkələrimiz arasında iqtisadi əməkdaşlığı müzakirə edəcəyik. İkitərəfli münasibətlərimizə bir daha toxunaraq qeyd etmək istəyirəm ki, biz diqqətimizi iqtisadiyyat sahəsində cəmləşdirəcəyik. Buraya energetika və nəqliyyat sahəsi aiddir. Biz ümid edirik ki, Pakistan ölkəmizin ərazisindən keçən mövcud və yeni yaranmaqda olan nəqliyyat marşrutlarına qoşulacaq. Beləliklə, biz əməkdaşlığımızı bu sahədə də genişləndirmiş olacağıq.

Əlbəttə, hərbi sahədə əməkdaşlığımızın böyük potensialı var və əminəm ki, bu gün siz həmkarlarınızla gələcək planlarımızı müzakirə edəcəksiniz. Biz artıq Pakistan müdafiə sənayesinin məhsulları ilə tanışıq. Bildiyiniz kimi, biz Pakistandan hərbi avadanlıq almışıq və bu prosesi davam etdirmək arzusundayıq. Bununla yanaşı, biz birgə hərbi təlimlər üzərində düşünürük. Hesab edirik ki, artıq bunun vaxtı çatıb.

Biz artıq Azərbaycan, Türkiyə və Pakistan arasında siyasi və digər sahələrdə, o cümlədən müdafiə sahəsində üçtərəfli əməkdaşlıq formatının yaxşı nəticələrinin şahidi olduq. Hesab edirəm ki, biz səylərimizi birləşdirərək mövqelərimizi gücləndirəcəyik və sülhə töhfə verəcəyik. Çünki ölkələrimiz regionda sülh və ədalətin tərəfdarıdır. Biz beynəlxalq hüququn işləmədiyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin 27 il ərzində icra edilmədiyini, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana qarşı sanksiyaların tətbiq olunmadığını, Ermənistanın cəzalandırılmadığını və sonsuz danışıqların dalana dirəndiyini görəndə ədaləti özümüz bərpa etməli olduq. Yəni beynəlxalq hüquq işləmədiyi halda, güc vasitəsilə həyata keçirilməlidir. Biz buna nail olduq və bunu bütün dünyaya nümayiş etdirdik.

Ancaq biz sülh istəyirik və bu gün sülhü təbliğ edirik. Beləliklə, bizim hərbi sahədə əməkdaşlığımız dünyada sülhün bərqərar olunması işinə töhfə verəcək. Bir daha xoş gəlmisiniz. Sizə ölkəmizdə yaxşı vaxt keçirməyi və həmkarlarınızla səmərəli iş aparmağı arzulayıram.

❖ ❖ ❖

Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general **Nadim Raza** dedi:

- Çox sağ olun, cənab Prezident. Əvvəlcə, Sizinlə görüşməkdən böyük şərəf hissi duyuram və bu cür yerinə düşən görüş fürsətinə görə Sizə olduqca minnətdaram. Sizin və Azərbaycan xalqının 44 günlük müharibədə tam Qələbəsi münasibətilə Sizi öz adımdan, Pakistanın bütün Silahlı Qüvvələri və Pakistan xalqı adından təbrik etmək istərdim. Deməliyəm ki, zəfəriniz eyni istəklə Pakistanda qeyd olundu. Buna görə zatialiləri, cənab səfir hadisələrin gedişatı haqqında bizi daim məlumatlandırırdı. Müharibənin istənilən anında Azərbaycan Silahlı Qüvvələrinin əməliyyatları bizim kütləvi informasiya vasitələrində əsas başlıqla gedirdi. Bir daha tam qələbəniz münasibətilə Sizi təbrik edirəm.

# Milli Məclisin sədri Sahibə Qafarova Venesuelanın Azərbaycandakı səfiri ilə görüşüb

**Martın 3-də Milli Məclisin sədri Sahibə Qafarova Venesuela Bolivar Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kristofer A. Martinez Berroteranla görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, parlamentin sədri qonağı səmimi salamlayaraq, ölkələrimiz arasında coğrafi məsafənin böyük olmasına baxmayaraq, dostluq münasibətlərimizin inkişaf etdiyini söyləyib. İki ölkə arasında diplomatik münasibətlərin qurulması bu əlaqələrin inkişafı üçün əlverişli şərait yaradıb. Yüksəksəviyyəli səfərlər, aparılan danışıqlar və ölkələrimiz arasında imzalanmış sənədlər tərəflərin əməkdaşlığı genişləndirmək barədə xoş niyyətindən xəbər verir. Siyasi əlaqələrin inkişafı iqtisadiyyatda, sərmayə qoyuluşunda, energetika, nəqliyyat sektorunda, elm, təhsil, ətraf mühitin qorunması kimi sahələrdə əməkdaşlıq üçün mövcud potensialdan istifadə olunmasına şərait yaradır.

Görüşdə sədr deyib ki, Dağlıq Qarabağ münaqişəsinin həllində Venesuelanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi dost münasibəti kimi dəyərləndirilir. Spiker bildirib ki, 44 günlük Vətən müharibəsi zamanı ölkəmiz öz torpaqlarını erməni işğalından azad edərək, ərazi bütövlüyünü bərpa etməyə nail oldu: "İnanırıq ki, ölkəmizin bu qələbəsi bütün dostlarımız kimi, Venesuela xalqını da sevindirib".

Daha sonra sədr Sahibə Qafarova deyib ki, Azərbaycan Venesuela Bolivar Respublikası ilə parlamentlər səviyyəsində münasibətlərini dərinləşdirmək niyyətindədir. Hər iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrin inkişafı həyatın digər sahələrində də əməkdaşlığımızın dərinləşdirilməsinə müsbət təsirini göstərər.

Səmimi qəbul üçün təşəkkür edən Venesuela Bolivar Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kristofer Martinez Berroteran ölkəsinin Cənubi Qafqazın bu bölgəsi ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini vurğulayıb. O, parlament diplomatiyasının inkişafında Milli Məclisin rolunu yüksək qiymətləndirərək, Azərbaycan parlamentinin fəaliyyəti ilə yaxından maraqlandığını bildirib. Qeyd edilib ki, hər iki ölkə parlamentləri arasında münasibətlərin inkişafı ümumi mənafelərə cavab verər. Bu baxımdan dostluq qruplarının yaradılması məqsədəmüvafiq sayıla bilər. Qonaq Venesuela parlamentinin fəaliyyəti barədə sədrə ətraflı məlumat verərək, mütəmadi görüşlərin əhəmiyyətini vurğulayıb.

Səfir ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəklədiyini bir daha bəyan edərək, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatı diplomatiyanın uğuru kimi dəyərləndirib.

Görüşdə parlamentlərarası əlaqələrin gələcək inkişaf istiqamətləri, COVID-19 pandemiyasına qarşı mübarizə və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin komitə iclasları keçirilib

Martın 3-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, komitənin sədri Musa Quliyev iclasda "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirə ediləcəyini deyib. Məlumat verib ki, Əmək Məcəlləsinə təklif olunan hazırkı dəyişikliklər əmək münasibətlərində mülki-hüquqi münasibətlər formasından sui-istifadə hallarının qarşısının alınması məqsədi daşıyır və dəyişikliklərlə bağlı qanun layihəsinin parlamentin plenar iclasında müzakirəsi zamanı deputatların qaldırdığı məsələlər nəzərə alınıb, müəyyən dəqiqləşdirmələr aparılıb. Vurğulanıb ki, "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"na uyğun olaraq həyata keçirilən bu qanunvericilik təşəbbüsü işçilərin əmək hüquqlarının möhkəmləndirilməsinə, onların istirahət, məzuniyyət, sosial təminat, habelə gələcəkdə pensiya təminatı məsələlərinin müsbət həll edilməsinə yönəlib.

İclasda çıxış edən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, deputatlar Məlahət İbrahimqızı, Jalə Əliyeva, Səttar Möhbalıyev, Aqil Məmmədov, Vüqar İskəndərov, Sevinc Hüseynova, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bildiriblər ki, bu mühüm yenilik real əmək münasibətlərinin xidməti müqavilə ilə rəsmiləşdirilməsi mexanizmini yaratmaqla qeyri-rəsmi məşğulluğun azalmasına hesablanıb. Vurğulanıb ki, Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər böyük işçi kütləsinin əmək hüquqlarını möhkəmləndirəcək, sosial müdafiəsini gücləndirəcək və onların rifahının yüksəlməsinə xidmət edəcək.

Müzakirələrin sonunda komitə üzvləri "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsini ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Onlayn iclasda Milli Məclisin deputatları Ziyad Səmədzadə, Rauf Əliyev, Arzu Nağıyev, Əziz Ələkbərli, Vüqar Bayramov, Rəşad Mahmudov, Razi Nurullayev, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və digər rəsmi şəxslər iştirak ediblər.

❖ ❖ ❖

Martın 3-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Azərbaycanın aparıcı texnoloji şirkətlərini birləşdirən Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumunun (AZINNEX) nümayəndələri ilə görüş keçiriblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə yeni şəraitdə informasiya texnologiyaları ilə məşğul olan şirkətlərin fəaliyyəti, qlobal və yerli bazara innovativ, rəqabətqabiliyyətli, keyfiyyətli məhsul və xidmətləri təklif etmək məsələləri müzakirə olunub. Görüşdə Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumunun icraçı direktoru Fərid Kazımov və qurumu təmsil edən Rauf Həsənov ("BestComp Group"), İlham Namazov ("Cybernet"), Məhəmməd Zülfüqarlı ("Ultra Technologies"), Hikmət Abdullayev ("IDRAK Technology Transfer Company"), Vüsal Rüstəmov (İnnovasiyalar Mərkəzi), Yana Krimpe ("B.EST Solutions") iştirak ediblər.

Qonaqları salamlayan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, ölkəmizin rəqəmsallaşdırılması, informasiya texnologiyalarının bütün sahələrdə tətbiqi, innovativ fəaliyyətin dəstəklənməsi iqtisadi siyasətdə prioritet məsələlərdəndir. Müasir dövrdə dünyada iqtisadi inkişaf "biliklərə əsaslanan iqtisadiyyat" mərhələsinə keçib və yaxın illərdə üstünlük innovativ potensialdan səmərəli istifadə etməyi bacaran ölkələrdə olacaqdır.

Tahir Mirkişili əlavə edib ki, İKT ilə bağlı qanunvericiliyin təkmilləşməsi üzərində iş gedir, bu sahədə problemlər öyrənilir, bir sıra qanunvericilik aktlarının hazırlanması istiqamətində işlər aparılır, qanun layihələri təhlil edilir, xarici ölkələrin təcrübəsi öyrənilir.

Görüşdə çıxış edən İqtisadi siyasət komitəsinin üzvləri Əli Məsimli və Elnur Allahverdiyev fikirlərini bildiriblər, qeyd və təkliflərini veriblər.

Daha sonra görüşdə mövzu ətrafında müzakirələr aparılıb, sahibkarları maraqlandıran suallar cavablandırılıb, onların təklifləri dinlənilib.

Sonda bu cür görüşlərin mütəmadi keçirilməsi və qanunvericilik sahəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə AZİNNEX arasında əməkdaşlığın qurulması qərara alınıb.

# İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası

İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti - 4-cü iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclası açan Qərargahın rəhbəri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Qərargahın fəaliyyətini dövlət başçısının işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinin aparılması üzrə müəyyənləşdirdiyi strateji istiqamətlərə və tapşırıqlara uyğun olaraq həyata keçirdiyini qeyd edib.

Qərargahın rəhbəri bildirib ki, ötən həftə yerli və xarici media nümayəndələri üçün keçirilmiş mətbuat konfransı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin ölkəmiz üçün taleyüklü məsələ olduğunu xüsusi olaraq vurğulayıb.

İclasda işğaldan azad edilmiş ərazilərdə həlledici əhəmiyyət kəsb edən minalardan təmizləmə, ölkə vətəndaşlarının qayıdışı, enerji təminatı və xüsusilə də "Yaşıl enerji" məsələləri, şəhərsalma və nəqliyyat infrastrukturunun inkişafı üçün qısa və uzunmüddətli planlar, "Ağıllı kənd" konsepsiyasının tətbiqi üzrə məruzələr dinlənilib və müvafiq təlimatlar verilib.

İclasda dövlət başçısının tapşırıqlarına uyğun olaraq işlərin planlı və ardıcıl surətdə aparılmasının vacibliyi vurğulanıb.

# Azərbaycanın xarici işlər naziri italiyalı həmkarı ilə telefonla danışıb

Martın 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio ilə telefon danışığı baş tutub.



Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Nazir Ceyhun Bayramov hazırda bölgədə mövcud olan vəziyyət, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların həyata keçirilməsi ilə bağlı məsələlər, o cümlədən ölkəmiz tərəfindən bu istiqamətdə görülən işlər və Ermənistanın bəyanatdan irəli gələn öhdəliklərinə qarşı olan pozucu əməlləri barədə italiyalı həmkarına məlumat verib.

Nazir Luici Di Maio bölgədə dövlətlərarası vəziyyətin normallaşması üçün üçtərəfli bəyanatların bütün aspektlərinin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Nazirlər həmçinin ölkələr arasında mövcud olan münasibətlərin hərtərəfli inkişafı perspektivləri, regiondakı yeni əməkdaşlıq imkanları, enerji və humanitar sahələrdə əməkdaşlığın genişlənməsi imkanlarını müzakirə ediblər. Tərəflər habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Milli Məclisin martın 9-da keçiriləcək iclasının gündəliyi açıqlanıb

**Milli Məclisin martın 9-da keçiriləcək iclasının gündəliyi açıqlanıb. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, gündəliyə aşağıdakı məsələlər daxildir:**

-Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında.

- "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

- Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

- Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

- Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

- Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

- "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

- "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

# Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın istiqamətləri müzakirə olunub

Martın 3-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək, üzərinə əklil və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovulun önündən keçdikdən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq general Nadim Raza "Şərəf kitabı"nı imzalayıb. Hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinin müzakirə edildiyi görüşdə xalqlarımız arasında ənənəvi dostluq və qarşılıqlı etimadın, eləcə də Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Müdafiə naziri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə Vətən müharibəsi Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatdı və torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Ordusu tərəfindən keçirilmiş uğurlu hərbi əməliyyatlar haqqında qonağa məlumat verən nazir bildirib ki, ordumuzun bu müharibədə qazandığı döyüş təcrübəsi dünyanın bir çox ölkəsinin orduları və beynəlxalq hərbi ekspertlər tərəfindən öyrənilir.

Azərbaycan-Pakistan hərbi əməkdaşlığının inkişaf etməsindən məmnunluğunu ifadə edən general-polkovnik Z.Həsənov Azərbaycanın ədalətli mövqeyini bütün səviyyələrdə, o cümlədən beynəlxalq təşkilatlarda dəstəklədiyinə, həmçinin ölkəmizə göstərilən humanitar yardıma və mənəvi dəstəyə görə Pakistan rəhbərliyinə və xalqına minnətdarlığını ifadə edib.

Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Z.Həsənov bu cür görüşlərin qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından vacibliyini xüsusi vurğulayıb.

Pakistan Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Vətən müharibəsində qazanılan qələbə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Xalqlarımız arasında tarixən dostluq əlaqələrinin olduğunu qeyd edən general N.Raza bu münasibətlərin digər sahələrdə olduğu kimi, ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın da inkişafına böyük töhfə verdiyini bildirib.

Yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən general N.Raza azad edilmiş ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsi prosesində pakistanlı mütəxəssislərin də iştirak etməyə hazır olduğunu bir daha diqqətə çatdırıb. General həmçinin iki ölkənin hərbi sahədə əməkdaşlığının keyfiyyətcə yeni müstəviyə çıxarılması üçün kifayət qədər geniş potensialın olduğunu bildirib.

Tərəflər hərbi əlaqələrin hər iki ölkənin maraqlarına cavab verdiyini əsas gətirərək bu sahədə səylərin daha da artırılmasının zəruriliyini qeyd ediblər. Hərbi əməkdaşlığın əsas istiqamətlərinin müzakirəsi zamanı Azərbaycan Ordusu ilə Pakistan Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin, o cümlədən xüsusi təyinatlı qüvvələrin cəlb edilməsi ilə birgə hərbi təlimlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə hərbi qulluqçuların qarşılıqlı səfərlərinin təşkili və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Özbəkistan parlamentləri arasında əməkdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb

Martın 3-də Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Özbəkistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qonağı salamlayan sədr müavini bildirib ki, ölkələrimiz arasındakı münasibətlər qədim köklərə malikdir. İki ölkə arasındakı əlaqələrin inkişafında dövlət başçılarının rolundan danışan vitse-spiker belə yüksəksəviyyəli səfərlər zamanı bir sıra mühüm ikitərəfli sənədlərin imzalandığını diqqətə çatdırıb.

Adil Əliyev səfirə ölkəmizə təyin olunduğu 2020-ci ilin Azərbaycan tarixinə Zəfər ili kimi düşdüyünü, bu tarixə qədər Ermənistanın torpaqlarımızı 30 ilə yaxın müddətdə işğal altında saxladığını, bir milyondan çox həmvətənimizin məcburi köçkün kimi öz yurd-yuvasından ayrı düşdüyünü xatırladıb. Bildirib ki, bu işğal faktı regionda sülhün və sabitliyin yaranmasının qarşısında əsas əngəl idi. 2020-ci il sentyabrın 27-də isə təmas xəttində düşmən növbəti dəfə təxribat törədərək, mülki əhalinin yaşadığı əraziləri atəşə tutdu, nəticədə Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə düşmənə sarsıdıcı zərbə vuruldu və Ermənistan məğlubiyyətə uğradıldı. Bununla da 30 ildən sonra BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Ümid edirik ki, Ermənistan bundan sonra təcavüz siyasətindən əl çəkəcək və regionda sülh bərqərar olacaq.

Səmimi görüşə görə minnətdarlığını bildirən Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov ölkəmizdə müşahidə edilən hərtərəfli inkişafın təqdirəlayiq olduğunu deyib. Azərbaycanın ölkədə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin üzvləri üçün Ağdam və işğaldan azad edilmiş digər rayonlara təşkil etdiyi səfərlərdən danışan səfir diqqətə çatdırıb ki, o, həmin səfərlər zamanı Ağdam və işğaldan azad edilmiş digər ərazilərdə ermənilər tərəfindən tarixi abidələrə qarşı törədilmiş terroru, mədəni abidələrin dağıdılmasını şiddətlə qınayıb. Səfir diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasındakı münasibətlərin inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluq bildirilib, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Vətəndaş məmnuniyyətinin ünvanı

## Bir il əvvəl açılışı olan Tovuz "ASAN xidmət" mərkəzində 210 minə yaxın müraciət qeydə alınıb

*Əvvəli 1-ci səh.*











Hazırda Azərbaycanda 20 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i Bakı şəhərində, digərləri isə Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir.

### "ASAN xidmət"lərin sayı 27-yə çatdırılacaq

Tovuz "ASAN Həyat" kompleksi Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətə başlayan sayca 18-ci mərkəzidir. Tovuz rayonunun Aşağı Quşçu kəndinin ərazisində yerləşən kompleksin tikintisinə 2018-ci ilin aprel ayında başlanılmışdır. Nəzərdə tutulan qrafikə uyğun vaxtında inşa olunan və ötən il martın əvvəllərində vətəndaşlara xidmət üçün tam hazır vəziyyətinə gətirilmişdir.

Ötən il Tovuz "ASAN Həyat" kompleksinin açılışından sonra könüllülərlə görüşən Prezident İlham Əliyev belə mərkəzlərin sayının 27-yə çatdırılacağını bildirmişdir: "ASAN xidmət" mərkəzlərinin yaradılması ilə bağlı kifayət qədər geniş proqramımız var. Dediyim kimi, bu, sayca 18-ci mərkəzdir, ancaq yaxın gələcəkdə mərkəzlərin sayı 27-yə çatacaq. Ağcabədi, Balakən, Naxçıvan, Sumqayıt, Gəncə, Lənkəran və Salyan şəhərlərində mərkəzlər, Bakıda isə daha iki mərkəz tikiləcək. Əlbəttə ki, bu proses sonra da davam etdiriləcək. Beləliklə, insanlara daha da keyfiyyətli xidmətin göstərilməsi təmin olunacaq".

Tovuz "ASAN Həyat" kompleksi respublikamızın qərb zonasında fəaliyyətə başlayan sayca ikinci mərkəzdir. Bu bölgədə birinci mərkəz Gəncə şəhərində açılıb. Tələbat böyük olduğu üçün regiondakı üçüncü belə mərkəz tezliklə Gəncə şəhərində fəaliyyətə başlayacaq və bu istiqamətdə işlər davam edir. Ümumiyyətlə isə hazırda Gəncə ilə yanaşı, Bakı və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur.

### Operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsipləri və vətəndaş məmnunluğu

Son illərdə istifadəyə verilən "ASAN xidmət" mərkəzlərinin inzibati binaları orijinal memarlıq və daxili dizayn üslubları ilə fərqlənirlər. Tovuz "ASAN Həyat" kompleksi də öz möhtəşəm görkəmi ilə indi Tovuz rayonunun ən gözəl ünvanları sırasında yer alır və cazibədarlığı ilə uzaqdan diqqəti çəkir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevin məlumatına görə, bu kompleks Tovuzla yanaşı, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonlarında qeydiyyatda olan 700 mindən artıq vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün insanlara xidmət göstərir. Mərkəzin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsiplərinə uyğun qurulub və vətəndaş rahatlığına hesablanıb. Burada müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320-dən çox xidmət həyata keçirilir. Fəaliyyət göstərdiyi müddət ərzində 210 minə yaxın vətəndaş müraciəti qeydə alınıb.

Söhbət etdiyimiz vətəndaşlar da Tovuzda "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlamasından razılıqla söz açdılar, ölkə Prezidentinə minnətdarlıqlarını ifadə etdilər. Qazax rayonunun Kəmərli kənd sakini Aydın Qəhrəmanov mərkəzə sürücülüq vəsiqəsini dəyişdirmək üçün gəlmişdi: "Belə qısa vaxtda vəsiqəni dəyişəcəklərini gözləmirdim. Müraciətimizi qəbul etdilər, bir neçə dəqiqədən sonra yeni vəsiqəni təqdim elədilər. Allah Prezidentimizdən razı olsun, heç təsəvvür də etmirdim ki, burada belə yüksək xidmət göstərilir. Mərkəzin əməkdaşları çox yaxşı işləyirlər, gələndən diqqət yetirirəm, hamı razılıq edir".

Zərəngiz Rəhimova isə sənədini notariusda təsdiq etdirmək üçün gəlmişdi. "Qapıdan girəndən hamını gülərüzlə qarşılayırlar. Birinci dəfə deyil bu mərkəzə gəlirəm. Hər dəfə də bura gələndə hara müraciət etməyimi başa salır, köməklərini əsirgəmirlər. Olduqca məmnunam və sevinirəm ki, ölkəmizdə vətəndaşların müraciətlərinə bu cür gözəl münasibət göstərilir. Bu, Prezident İlham Əliyevin rəhbərliyinin gözəl nümunələrindən biridir".







### İlham ƏLİYEV: "Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlamışdır"

Məlum olduğu kimi, könüllülük respublikamızda bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib. "ASAN xidmət" mərkəzləri isə Azərbaycanda bu dövlət siyasətinə böyük töhfə verən məktəbdir. İndiyədək minlərlə gənc vətəndaşımız öz karyerasına "ASAN xidmət" mərkəzlərində könüllü kimi fəaliyyət göstərməklə başlayıb.

Ötən il Tovuzda "ASAN Həyat" kompleksinin açılışından sonra Prezident İlham Əliyev mərkəzin əməkdaşları ilə yanaşı, könüllülərlə də görüşmüşdü. Dövlət başçısı əmin olduğunu bildirmişdi ki, "ASAN xidmət"də çalışan, eyni zamanda könüllülər kimi fəaliyyət göstərən gənclərin çox parlaq gələcəyi olacaq: *"Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlamışdır. İndi könüllülər hərəkatı digər sahələri də əhatə edir. Mən göstəriş vermişəm ki, dövlət qurumlarında da könüllülər dəstələri, qrupları yaradılsın. Artıq bəzi nazirliklərdə könüllülər qrupları yaradılıb. Bizim beynəlxalq tədbirlərdə - Avropa və İslam oyunlarının keçirilməsində könüllülər çox böyük xidmət göstərmişlər. Amma başlanğıc "ASAN"dan start alıb. Bu gün minlərlə könüllü artıq bu təlimdən keçib və həyatda öz layiqli yerini tutub. Əminəm ki, "ASAN xidmət"də çalışan, eyni zamanda könüllülər kimi fəaliyyət göstərən gənclərin çox parlaq gələcəyi olacaq. Çünki onlar artıq çox xeyirxah bir işlə təmin olunublar".*

Dövlət başçısı ilə görüşən könüllülərdən biri Aygün Cabbarlı idi. Hazırda Tovuz "ASAN xidmət" mərkəzinin könüllülər üzrə məsul əməkdaşı olan Aygün Cabbarlı deyir ki, həmin görüşdə çıxış etmək olduqca qürurverici idi: "Son illərdə mənim kimi minlərlə gəncin həyat yolu "ASAN xidmət"dən başlayıb. Prezident İlham Əliyev öz nitqində bizə gələcək fəaliyyətimizlə bağlı yol göstərdi, yeni istiqamətlər verdi. Mən bir daha dövlətimizin başçısı ilə fəxr etdim. Çünki könüllülük fəaliyyətinə göstərilən yüksək diqqət ölkəmizdə gənclər üçün yaradılan imkanların təsdiqidir".

Mərkəzdə cəmi bir aydır könüllü kimi fəaliyyət göstərən Nihat Qasımov Gəncə Dövlət Aqrar Universitetinin məzunudur: "Əsas işimiz vətəndaşların müraciətlərini dinləmək, onlara yüksək xidmət etməkdir. "ASAN xidmət" ailəsinin üzvü olmaq mənim üçün şərəfdir. Qısa müddətdə burda öyrəndiklərim gələcək karyeramı düzgün müəyyənləşdirməkdə mənə çox kömək edəcək".

### "ABAD Factory"də ixracyönümlü 80 adda məhsul istehsal ediləcək

Tovuz "ASAN Həyat" kompleksinin ərazisində "ASAN xidmət" mərkəzi, "ABAD" mərkəzi, "ABAD Factory" Bitkilərin Emalı və Qurudulması Fabriki, Kinoklub, "ABAD məktəb" təlim mərkəzi, Hərbi Vətənpərvərlik Mərkəzi, "ASAN kafe" fəaliyyət göstərir.

"ABAD Factory" Bitkilərin Emalı və Qurudulması Fabrikində rəqabətqabiliyyətli, ixracyönümlü 80 adda məhsulun istehsalı nəzərdə tutulur. Kompleksdə fəaliyyət göstərən kinoklubda hər birinin 58 nəfər tutumu olan 2 ədəd kinozal var. Vətəndaşların istirahəti üçün nəzərdə tutulmuş "ASAN kafe"nin tutumu 64 nəfərdir. Kafedə müxtəlif oyun avadanlıqları olan uşaq əyləncə guşəsi də var. "ABAD məktəb" təlim mərkəzində gənclərin tikiş, rəssamlıq, turizm, saz musiqi alətinin hazırlanması, informasiya texnologiyaları və aqrartexniki peşələrə yiyələnmələri üçün lazımi şəraitə malik sinif otaqları mövcuddur. Hərbi Vətənpərvərlik Mərkəzində gənclər hərb tariximiz, ordu quruculuğu barədə geniş məlumatlar almaqla yanaşı, ibtidai hərbi hazırlıq təlimlərində də iştirak edə bilirlər. Kompleksin həyətində vətəndaşların asudə vaxtlarını xoş keçirmələri üçün park salınmışdır. Parkın ərazisində fəvvarə, uşaq əyləncə guşəsi, konsert meydançası və açıq havada 40 yerlik kafe var.

Tovuz "ASAN Həyat" kompleksində gördüklərimiz göstərdi ki, "ASAN xidmət" mərkəzləri respublikamızda vətəndaş məmnuniyyətinin əsas ünvanlarından biridir. Bunu indiyədək "ASAN xidmət" mərkəzlərinə 7,3 milyondan artıq vətəndaşdan 42 milyondan çox müraciətin daxil olması və xidmətlərdən məmnunluq əmsalının 99,5 faiz təşkil etməsi də təsdiqləyir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Faşizm ideologiyası erməni xalqını məhvə aparır



Erməni siyasətçilərinin, bu xalqa rəhbərlik edənlərin, hakimiyyətə can atanların hər birinin başlıca şüarı millətçilik, "Böyük Ermənistan" yaratmaq, təcavüz yolu ilə torpaqları işğal etməkdir. Çünki erməni xalqına rəhbərlik etmək üçün şans qazanmaqdan ötrü başqa yol yoxdur. Bu çağırışlara sadiq olmayan və onu özü üçün müqəddəs amal hesab etməyən ermənininin kiçik bir vəzifə tutması belə mümkün deyildir. Çünki körpəlikdən ermənilərin mayası faşizm ideologiyası, millətçilik, terror, təcavüz amalları ilə yoğrulub və onlar daim başqa xalqlara, xüsusilə türklərə və azərbaycanlılara nifrət ruhunda tərbiyə alıblar.

Dünyanın ən ali və qədim xalqı iddiası, xristianlığın təməlini qoyan millət, cəmiyyət mifik düşüncəsi, hamıdan ağıllı psixologiyası, reallıqlara əsaslanmayan və ağlasığmayan hadisələri həqiqət kimi qələmə vermək cəhdi, faşist, cəllad, xain dünyagörüşü ermənilərin qanına elə yeriyib ki, onlar buna görə tarixboyu əzilə-əzilə, onun-bunun qoltuğuna sığınasığına yaşayıblar, ancaq yenə də öz iddialarından əl çəkməyiblər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində çıxışında ermənilərin mənfur xislətini çox gözəl xarakterizə edərək demişdir: "Bütün dünyaya əsassız tələblər irəli sürürlər. Sanki hər kəs bunlara kömək etməlidir, bunları müftə yedizdirməlidir, silahla təmin etməlidir. Bir zəli kimi yapışıblar dünya ölkələrinin vücuduna. Bizim torpağımızı işğal edib, insanları evsiz- eşiksiz qoyub, tarixi abidələrimizi, məscidlərimizi dağıdıb. Ondan sonra da deyib ki, bu erməni torpağıdır".

Ermənilər dünyaya onları tanıyan, əməllərinə bələd olan müdriklər, tarixçilər, siyasətçilər tərəfindən ən riyakar, xain, ikiüzlü xalq kimi təqdim olunmalarına baxmayaraq, bütün yollara getdikləri, ən çirkin əməlləri işlətdikləri üçün daim əldə oyuncaq, vasitə kimi istifadə olunmuşdur.

Erməni xislətinə dərindən bələd olan, bu xalqın insanlığa zidd əməllərinin şahidinə çevrilən heç bir kəs bu insanlara bel bağlamaz.

Son bir əsrdə ermənilər tərəfindən törədilən minlərlə qətllər, soyqırımlar, terror aktları, kütləvi insan tələfatları deməyə əsas verir ki, onlar dünyanın ən qəddar xalqıdır. Ermənilər nəinki sığındıqları azərbaycanlılara, eləcə də türklərə, fransızlara, ruslara, ingilislərə və başqa xalqlara da qarşı terror, qətl hadisələri törətmiş, xəyanət etmişlər. Birinci Dünya müharibəsində ermənilərin milli qəhrəman səviyyəsinə qaldırdıqları, adını və heykəlini ucaltdıqları Andranik minlərlə azərbaycanlının və türkün qanını axıtmış, yəhudilərin, kürdlərin, rusların ölümünə səbəb olmuş, başqa dövlətlərə satılaraq dinc insanların məhv edilməsində fəal iştirak etmişdir. Ermənilər tərəfindən heykəli ucaldılan, adına küçələr salınan Qaragin Njde isə öz babalarının yolunu gedərək İkinci Dünya müharibəsində almanlara satılmış, sovet ordusuna qarşı vuruşmuş, çoxsaylı insan qətlinə imkan yaratmışdır. Tarixdə saysız- hesabsız cinayətlər törədən, etnik mənsubiyyətlərdən aşlı olmayaraq minlərlə insan qatillərinin Ermənistan hərbi-siyasi rəhbərləri tərəfindən dəstəklənməsi faşizm ideologiyasının dövlət səviyyəsində müdafiə edilməsidir.

Bu gün Ermənistan dünyada faşist ideologiyasını təbliğ edən və bu ideologiyanın nümayəndələrini milli qəhrəman səviyyəsinə ucaldan birinci dövlətdir. Bunun nəticəsidir ki, Ermənistanın keçmiş və indiki rəhbərləri həmişə qan tökmələri, qəddarlıq etmələri, kənd və şəhərləri viran qoymaları, cinayətlər törətmələri ilə fəxr edir və bu çirkin əməllərindən qürur duyurlar.

Zori Balayan 13 yaşlı azərbaycanlı qızın dərisini diri-diri soyması ilə fəxr etdiyi halda, keçmiş prezidentlər Koçaryan və Sarkisyan Xocalı soyqırımında bilavasitə iştirak etdiklərinə, yüzlərlə uşağı, qocanı, qadını qətlə yetirdiklərinə görə qürur duyur və bunu beynəlxalq aləmə bəyan edirlər.

Onlar bu gün də törətdikləri ağır cinayətin fərqində deyillər və yeni, daha amansız qətllər, soyqırımlar həyata keçirmək arzusundadırlar. Bir vaxtlar "Xocalıya qədər azərbaycanlılar bizim zarafat etdiyimizi düşünürdülər, biz stereotipləri qırdıq, yəni azərbaycanlılara qəddarlığımızı göstərdik" deyən S.Sarkisyan Vətən müharibəsində "İsgəndər" raketlərinin işə salınmamasından təəssüf hissi keçirdiyini bildirir və buna görə baş nazir N.Paşinyanı günahlandırır. O, bu raketlərin müharibə başlayan ilk günlərdən istifadə olunmasının və külli miqdarda insanın məhv edilməsinin vacib olduğunu dilə gətirməklə faşist xislətini bir daha dünyaya nümayiş etdirir.

Onun-bunun əlinə baxa-baxa yaşayan Ermənistan rəhbərləri, siyasətçiləri revanş əldə etmək, müharibəyə başlamaq arzusundadırlar. Başadüşülən deyil. Tam məğlubiyyətə uğrayan, müharibənin dayandırılması üçün diz çöküb yalvaran, məğlubiyyət aktına imza atan, iqtisadi cəhətdən çökən, vətəndaş müharibəsi şəraitində yaşayan bir ölkə hansı ordu və qüvvə ilə müharibə aparmağa qadirdir. Əgər döyüşlər yenidən başlayarsa, Ermənistanın hansı vəziyyətə düşəcəyi hər bir kəsə məlumdur.

Ölkə çıxılmaz vəziyyətdə olduğu bir halda erməni siyasətçiləri, diaspor təşkilatları yenə də qonşu dövlətlərə qarşı torpaq iddiasından əl çəkmir, sərsəm fikirlər səsləndirirlər. Azərbaycan və Türkiyədən başqa, ermənilər Gürcüstanın bir çox ərazilərini Ermənistana qatmaq məqsədilə çağırışlar edir və təxribatlar törədirlər.

Hətta onlar Rusiyanın bir çox ərazilərinin erməni torpaqları olduğunu belə dilə gətirməkdən çəkinmirlər. Ermənistanın Rusiyadan asılı olduğu bir vaxtda erməni siyasətçilərinin səsləndirdikləri bu fikirlər xəyanətin nümunəsidir.

Rusiyadakı erməni diasporunun nümayəndəsi Norayr Qriqoryan açıq şəkildə bəyan edir ki, diasporun əsas və təxirəsalınmaz vəzifəsi Soçi və Adler şəhərlərində erməni muxtariyyəti əldə etməkdir. O bildirir ki, Abxaziya bizimdir. Dağıstan və Çeçenistan "Böyük Ermənistan"ın tərkibində olmuşdur və ermənilər bu ərazilərdə öz hüquqlarını bərpa etməlidirlər.

ABŞ-dakı erməni icmasının tanınmış üzvlərindən biri Artaşes Poqosyan isə erməni rəhbərlərini xain adlandırır. Onları Bakıya satılmaqda günahlandırır: "Deyəsən, Ermənistan rəhbərliyi ilə Bakı arasında yeni, ictimaiyyətə açıqlanmayan razılaşma var".

Bax budur, erməni xisləti, erməni düşüncəsi, erməni riyakarlığı. Ancaq bu riyakarların, faşistlərin səsinə səs verənlər, onları həvəsləndirənlər, yeni münaqişələrə yol açmağa imkan yaradanlar da var. Cənab İlham Əliyev belələrinə qarşı özünün kəskin mövqeyini ortaya qoyur: "Bir neçə gün əvvəl eşitmişəm ki, indi onların müttəfiqləri Ermənistan ordusunu canlandırmaq istəyirlər, onları modernləşdirmək istəyirlər. Nəyə görə? Müharibə başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu batdı, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır".

Ölkə rəhbərinin qeyd etdiyi kimi, erməni xalqı, ölkənin hərbi-siyasi dairələrinin rəhbərləri faşizm ideologiyasının əsirinə çevrilmişlər. Uzun illər xalqımıza qarşı aparılan təcavüzkarlıq siyasəti və mövcud vəziyyət bunu aydın göstərir. 30 il torpaqlarımızın işğal altında saxlanılması, kütləvi qətllər, eləcə də müharibə günlərində dinc əhalinin və mülki obyektlərin raket atəşinə tutulması bu dövlətin terrorçuluq siyasətini özündə əks etdirir. Yaxşıdır ki, hazırda beynəlxalq aləm Ermənistanda faşizmin təbliğinin dövlət siyasəti səviyyəsinə qaldırılmasını, belə bir təhlükəli meylin qorxulu bir tendensiyaya çevrildiyini anlamağa başlamışdır.

Njde və daşnaksütyun ideologiyası ilə silahlanan erməni xalqı bilməlidir ki, bu, faşist ideologiyasıdır, nəinki erməni xalqı, bəşəriyyət üçün çox təhlükəlidir. Çünki bu ideologiya insanlığa qarşıdır, özünü dünyadan təcrid etmək və digər cəmiyyətlər üzərində üstünlük nümayiş etdirmək prinsipləri əsasında qurulmuşdur.

Erməni dövləti və xalqı faşist ideologiyasından, millətçilik niyyətlərindən əl çəkib qonşu dövlətlərlə münasibətləri yaxşılaşdırmasa, iqtisadiyyatın, ictimai-siyasi sabitliyin, insanların normal yaşayışının qeydinə qalmasa, məhv olacaqdır.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Tibbi ehtiyacların ödənilməsi üzrə işlər davam etdirilir





**"YAŞAT" Fondu yaralanan şəxslərin müalicə xərclərinin qarşılanması və şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi üzrə işləri davam etdirir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qazilərimiz Ayxan İsayevin, Novruz Novruzovun və İsrail İsmayılovun, səhidimiz Ramin Ağayevin atası Ağarəhim Ağayevin əməliyyat xərcləri fond tərəfindən qarşılanıb.

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 "Çağrı mərkəzi" fəaliyyət göstərir.

# Qalib Sərkərdənin uğurlu "yol xəritəsi" hazırdır

*Əvvəli 1-ci səh.*

Müharibə başa çatdığı üçün artıq diqqətlər gələcəyə yönəlməlidir. Çünki postmüharibə dövrü əməkdaşlıq, kommunikasiyaların açılması, nəqliyyat dəhlizlərinin yaradılması üçün imkanlar yaradır. İlham Əliyev bəyan etdi ki, regionun inkişafı naminə icra ediləcək hər bir layihə özündən sonra digər layihənin reallaşmasına real zəmin yaradacaq. Bu gün artıq regionun gələcək inkişafı üçün yeni şərait yetişib. Nikbinliyə səbəb olan digər amil odur ki, qonşu dövlətlər də Azərbaycanla eyni mövqeni bölüşürlər. Regionun yüksəlişi üçün inteqrasiya layihələrinin icrası ilə bağlı fikir ayrılığı yoxdur. Əgər təkcə Zəngəzur dəhlizinə fikir versək görərik ki, bu, yalnız Rusiya, Azərbaycan, Türkiyə, İran və Ermənistanın maraqlarına cavab vermir. Bu, bütün regionun maraqlarına cavab verir. Yəni Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər.

İlham Əliyev Ermənistana bu məsələ ilə bağlı da mesaj ünvanladı. Bildirdi ki, Ermənistan da regionda gedən proseslərin tərkib hissəsi ola bilər, əgər üzərinə düşən öhdəlikləri icra edərsə. Əgər icra etməzsə, növbəti dəfə bu tarixi şansı itirə bilər, 90-cı illərdəki kimi... Reallaşacaq layihələr yenə də bu ölkədən yan keçəcək, Ermənistan bir quruş da mənfəət görməyəcək. Yəni bu günün reallığını qəbul etməsələr, yenə də eyni aqibətlə üzləşəcəklər. Azərbaycan isə əməkdaşlığa hazırdır və hesab edir ki, bu əməkdaşlıq bölgədə uzunmüddətli sülhün əsas təminatçısı ola bilər.

Azərbaycan, Türkiyə, Rusiya və İran arasında regionun gələcəyi ilə bağlı aydın fikir var. Ona görə də Ermənistan buna qarşı addım atmağa cəhd etməməlidir. Onun siyasi, hərbi və iqtisadi konfiqurasiyasının asılı vəziyyətdə olması bunu şərtləndirir.

Azərbaycan bu regionun tərkib hissəsi olub hər zaman uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndirilib. Yəni Azərbaycan regionun məsuliyyətli ölkəsidir. Yeni reallıqlar da göstərir ki, Azərbaycan doğru yolda inamla addımlayır. Prezident bunu belə qiymətləndirdi: "Bizim strateji baxışımız var. Biz nə istəyirik, bu günə qədər nə istəmişik, bundan sonra nə istəyirik. Bu arzulara, hədəflərə çatmaq üçün nə etməliyik? Bizdə çox aydın baxış və təsəvvür var. Biz bu ümumi plan çərçivəsində bundan sonra da öz addımlarımızı atacağıq və yeni nailiyyətlər, uğurlar da olacaqdır".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İtaliya Parlamenti tərəfindən qəbul edilmiş qətnamədə Azərbaycanın minalanmış ərazilərinin xəritələrinin verilməsi tələb olunub

**Martın 2-də İtaliya Parlamentinin aşağı palatası olan Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasında qəbul olunmuş "Ermənistan və Azərbaycan arasında razılaşmaların yerinə yetirilməsi vəziyyəti haqqında qətnamə"də Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizləmə əməliyyatlarını asanlaşdırmaq məqsədilə tərəflər konstruktiv fəaliyyət göstərməyə dəvət olunub və bu xüsusda minalanmış ərazilərin xəritələrinin verilməsi istənilib.**

AZƏRTAC xəbər verir ki, sənəddə Ermənistan və Azərbaycan arasında onilliklərdir davam edən münaqişəyə son qoymaq məqsədilə 9 noyabr tarixində Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası dövlət başçıları tərəfindən üçtərəfli Bəyanatın imzalandığı və Bəyanatdan irəli gələn öhdəliklərin yerinə yetirilməsi məqsədilə hər üç tərəfin nümayəndələri arasında, o cümlədən yüksək siyasi səviyyədə nəqliyyat və kommunikasiya mövzuları da daxil olmaqla bir neçə dəfə müzakirələrin keçirildiyi qeyd olunub.

Qətnamədə Azərbaycan tərəfinin üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirdiyini, müharibədən əvvəl və müharibə zamanı tutulmuş bütün erməni hərbi əsirləri qaytardığını bildirdiyi qeyd olunub, Azərbaycan tərəfində saxlanılan ermənilərin məhz 9 noyabr tarixli Bəyanatın imzalanmasından sonra həbs olunduğu vurğulanıb. Qətnamədə İtaliya hökumətindən BMT, ATƏT və Avropa İttifaqının 9 noyabr 2020-ci il tarixli Bəyanatın bütünlüklə icra olunmasına yönəlmiş təşəbbüslərini dəstəkləməsi və həbs edilmiş bütün müharibə əsirlərinin azad edilməsinə çağırış etməsi istənilib. Habelə İtaliya hökumətinə Ermənistan və Azərbaycan arasında gələcək barışıq şəraitinin yaranması üçün etimad quruculuğu tədbirlərini təşviq etmək istiqamətində hər iki hökumətlə ikitərəfli səviyyədə də iş aparması tapşırılıb.

Qətnamədə eyni zamanda İtaliya hökuməti qarşısında ərazilərin minalardan təmizlənməsi əməliyyatlarını asanlaşdırmaq məqsədilə tərəfləri konstruktiv fəaliyyət göstərməyə dəvət etməsi və bu xüsusda minalanmış ərazilərin xəritələrinin verilməsini istəməsi vəzifələri qoyulub.

Xatırladaq ki, İtaliya Parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasında 18 noyabr 2020-ci il tarixli qətnamədə 1993-cü ildən Ermənistanın Dağlıq Qarabağla yanaşı, Azərbaycanın digər ətraf yeddi rayonunu da işğal etdiyi, BMT Təhlükəsizlik Şurası tərəfindən silahlı qarşıdurmanın dayandırılması və işğal olunmuş ərazilərin Azərbaycana qaytarılması, eləcə də tərəflər arasında danışıqların başlanılmasına çağıran dörd qətnamənin qəbul edildiyi vurğulanıb və Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası dövlət başçıları tərəfindən 9 noyabr tarixində üçtərəfli Bəyanatın imzalanması alqışlanaraq tərəflər bu Bəyanatdan irəli gələn digər bütün öhdəliklərə əməl etməyə çağırılıb.

# Azərbaycan XİN
## Avropanın bəzi ölkələrinin parlamentlərinin qəbul etdiyi sənədlərə münasibət bildirib

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bəzi Avropa ölkələrinin parlamentlərinin qəbul etdiyi sənədlərlə bağlı yerli KİV-in sualını cavablandırıb.**

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva "Son günlər bəzi Avropa ölkələrinin qanunverici qurumları tərəfindən Ermənistan və Azərbaycan arasında əsirlərin mübadiləsi məsələsi ilə bağlı qətnamələr qəbul edilir. Bununla bağlı fikirlərinizi öyrənmək istərdik" sualına cavabında deyib:

"Qeyd etmək istərdim ki, Vətən müharibəsindən sonra bölgədə yaranan yeni vəziyyət və 10 noyabr tarixli üçtərəfli Bəyanatın icrası, sadəcə, bölgə ölkələrinin deyil, beynəlxalq ictimaiyyətin diqqət mərkəzində saxladığı məsələlərdəndir. Azərbaycan tərəfi hər zaman bəyan edib və bir daha vurğulayırıq ki, bölgədə dayanıqlı sülh və təhlükəsizliyin, inkişafın təmin olunması üçün imzalanmış üçtərəfli bəyanatların yerinə yetirilməsi vacib şərtdir. Doğru qeyd edirdiniz, son günlərdə bəzi Avropa ölkələrinin qanunverici qurumları bölgədəki vəziyyət və razılaşmaların icrası ilə bağlı sənədlərlə çıxış edirlər. Bu ilin 2 mart tarixdə İtaliya Parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasında "Ermənistan və Azərbaycan arasında razılaşmanın yerinə yetirilməsi vəziyyəti haqqında" qətnamə qəbul olunub. Qətnamədə hər iki tərəfə müraciət edilərək, tərəflər konstruktiv fəaliyyətə dəvət olunurlar. Balanslaşdırılmış mövqe nümayiş etdirən İtaliya Parlamenti İtaliya hökumətinə Ermənistan və Azərbaycan arasında gələcək barışıq şəraitinin yaranması üçün etimad quruculuq tədbirlərini təşviq etmək istiqamətində hər iki dövlətlə ikitərəfli səviyyədə iş aparmağı tapşırıb. Burada ən önəmli məsələ kimi, parlamentin ərazilərin minalardan təmizlənməsi məsələsinə diqqət ayırdığını və bu xüsusda minalanmış ərazilərin xəritələrinin verilməsini qeyd etdiyini vurğulamaq istərdim. Ümumiyyətlə, bildiyiniz kimi, artıq ikinci dəfədir ki, İtaliya parlamenti üçtərəfli Bəyanatın icrası ilə bağlı məsələyə diqqət ayırır. Bir müddət öncə 2020-ci il 18 noyabr tarixdə qəbul olunmuş qətnamədə də sözügedən birgə bəyanatın imzalanması alqışlanıb və tərəflər bu bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirməyə dəvət olunublar.

Bununla yanaşı, bu ilin 25 fevral tarixdə Niderland parlamentinin Xarici əlaqələr komitəsi tərəfindən "Azərbaycan tərəfindən həbs edilmiş hərbi əsirlərin azad edilməsi ilə bağlı" Niderland hökumətinə çağırış edən qətnamə qəbul olunub. Niderland parlamentinin növbəti əsassız və tamamilə birtərəfli xarakter daşıyan bu sənədi Komitənin hər zaman qərəzli mövqeyi ilə tanınan üzvlərinin canfəşanlığı nəticəsində qəbul olunub. Qeyd etmək istərdim ki, qətnamənin müzakirəsi zamanı iclasda çıxış edən Niderlandın xarici işlər naziri Stef Blok qətnamənin əleyhinə çıxış edib, həm Ermənistan, həm də Azərbaycanın hərbi əsirlərlə bağlı qarşılıqlı iddialarının olduğunu söyləyib və qətnamədə hər iki tərəfə çağırışın edilməsi düzəlişini təklif edib. Buna rəğmən, qətnaməyə düzəliş edilməyib. Bu, bir daha bəzi ölkələrin parlamentarlarının öz qərəzli mövqelərini hər şeydən, hətta bölgədə sülhün təmin olunması səylərindən üstün tutduqlarını göstərir.

Bir daha vurğulamaq istərdik ki, hərbi əməliyyatların dayandırılmasına dair razılığın əldə olunması ilə bölgədə yaranmış yeni vəziyyətdə, dayanıqlı sülhün əsas təminatçısı qismində çıxış edən üçtərəfli bəyanatların həyata keçirilməsi olduqca vacibdir və bölgəmizdə sülhü arzulayan hər hansı tərəf məhz bu razılaşmaların icrasına istər bəyanatları, istərsə də fəaliyyəti ilə töhfə verməlidir.

# Bəyanatdan irəli gələn öhdəliklər yerinə yetirilməlidir
## Əks təqdirdə Ermənistan daha ağır duruma düşəcəkdir

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti öncə Xocalı qətliamında əli xalqımızın qanına batan erməni cəlladlarının, daşnakların, "Böyük Ermənistan" xülyası ilə iki əsrə yaxındır "ideoloji mübarizə" aparan, əslində isə, terrorçuluqla məşğul olan, uşaq qatilləri olmaqları ilə fəxr edən, bunu yazıb "tarixləşdirən"ləri, həmçinin bu gün də Ermənistanda ara qarışdıran, dinc əhalini hakimiyyətə qarşı çevirənlərin özlərinin cinayətkar olmalarını bir daha dünyaya bəyan etdi: "...Xocalı soyqırımı dünya ictimaiyyəti tərəfindən tanınır, 10-dan çox ölkə bu hadisəni rəsmən soyqırımı kimi tanımış, təsdiq etmişdir və bu proses davam etdirilir. Azərbaycan dövləti eyni zamanda ölkəmizin ictimai təşkilatları bu sahədə böyük fəallıq göstərirlər və bu gün dünyada Xocalı soyqırımı haqqında kifayət qədər dolğun məlumat vardır. Ermənistan dövlətinin hərbi cinayətləri sənədləşdirilib, video, fotomateriallar kifayət qədər geniş auditoriyaya təqdim edilibdir. İndi bütün dünya görür və bilir ki, Azərbaycan xalqı XX əsrin sonunda soyqırımına məruz qalmışdır".

Dövlət başçısının bəyan etdiyi kimi, Xocalı soyqırımını törətməsi ilə Ermənistan, əslində, Azərbaycan xalqının iradəsini qırmaq istəyirdi. Təsadüfi deyil ki, Ermənistan rəhbərləri - hərbi cinayətkarlar xarici jurnalistlərə müsahibə verərkən bildirirdilər ki, Ermənistan bu hərbi cinayəti dinc əhaliyə qarşı törədib.

Başda Müzəffər Ali Baş Komandan olmaqla, zəfər çalan Milli Ordumuz Xocalı qurbanlarının intiqamını döyüş meydanında aldı. 44 günlük Vətən müharibəsində Ermənistanın yenilməzliyi haqqında qondarma mif yaratdığı ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan təmizlədi. Bu həm də Xocalı qurbanlarının qanının alınması deməkdir. Çünki döyüşlərdə Xocalı qətliamında qanlı əli olanlardan bir neçəsi də məhv edildi.

Bu gün Azərbaycan dünyada XXI əsrin müharibəsinin qalibi olan güclü dövlət kimi tanınır və heç vaxt imkan verməz ki, bir daha erməni faşizmi baş qaldırsın. Hansı ki, kapitulyasiya aktına imza atmağa vadar edilən Ermənistanda yenidən çevriliş edərək hakimiyyətə gəlmək istəyənlərin belə meyilləri görünməkdədir.

Azərbaycan Prezidenti Vətən müharibəsindən sonrakı aylar ərzində ölkəmizdə işğaldan azad edilən ərazilərdəki reallıqları öz gözləri ilə görmək üçün respublikamıza gələn xarici KİV təmsilçilərinə bununla bağlı təşəkkürünü də bildirdi: "Bu günlərdə Azərbaycanda bir çox tədbirlər keçirilir və bu tədbirləri işıqlandırmaq üçün xaricdən böyük bir jurnalist qrupu gəlmişdir. Mən onlara təşəkkürümü bildirirəm ki, bu hadisələri, bu soyqırımını işıqlandırmaq üçün bu gün Azərbaycandadırlar. Eyni zamanda bilirəm ki, onların bəziləri azad edilmiş torpaqlara getmişlər, o dağıntıları öz gözləri ilə görmüşlər və bundan sonra da gedəcəklər. Buna görə bir daha dərin təşəkkürümü bildirirəm..."

Mətbuat konfransında yenə də bəzi xarici KİV tərəfindən verilən sualların təxribat xarakter daşıması ilk andaca özünü göstərdi. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Prezidentinə mətbuat konfranslarında ünvanlanan suallar yenə də verilirdi. Dövlət başçısının əsaslı faktlarla cavabı isə özünü çox gözlətmirdi.

Ermənistanda hakimiyyət böhranının, çaxnaşma və xaosun hökm sürdüyü bu günlərdə Azərbaycan böyük qayıdış üçün hazırlıq işləri görür və bərpa, yenidənqurma, yeni həyat uğrunda əməli, konkret fəaliyyətlə məşğul olur. Bundan sonra Ermənistanla hansı və nə kimi kommunikasiya əlaqələrinin qurulması fikirləri də maraq doğuran suallardan hesab olunurdu. Ermənistandakı hazırkı duruma münasibətini bildirərkən dövlətimizin başçısı qeyd etdi ki, orada baş verən hadisələr onların daxili işidir: "...Mən dünən şəhid ailələri ilə görüşdəki çıxışımda o cümlədən Ermənistandakı vəziyyətə də toxundum. Ancaq onu bildirmək istəyirəm ki, o çıxış hadisələrdən əvvəl edilmişdir. Yəni mənim şəhid ailələri ilə görüşüm təqribən saat 10:30-da olmuşdur və mən Ermənistandakı hadisələrdən ondan sonra xəbər tutdum. Ona görə istəyirəm hər kəs bilsin ki, mənim şərhlərim bu hadisələrdən əvvəl edilmişdir..."

Ermənistan elə bir ağır durumdadır ki, orada gedən proseslər ölkənin dövlətçilik əsaslarını böyük dərəcədə sarsıdır. Bunun günahkarları Ermənistanın əvvəlki və indiki rəhbərləridir. Çünki iyirmi il ərzində Köçəryan-Sarkisyan xuntası Ermənistanı faktiki olaraq uçuruma aparırdı və böhranlı vəziyyətə gətirib çıxardı. Ölkə demək olar ki, bütövlükdə müstəqillik əlamətlərini itirmişdi, əslində, müstəmləkəyə bənzəyirdi. Əfsuslar olsun ki, nə əvvəlki xunta rejimi, nə də 2018-ci ildə hakimiyyətə gəlmiş hökumət Azərbaycanın dövlət başçısının çağırışlarına qulaq asmadı. Əlbəttə, vaxtında qulaq asılsaydı, onlar bu gün belə rəzil duruma düşməzdilər.

"Ermənistanda hazırda tamamilə böhranlı vəziyyətdir", - deyə Azərbaycan Prezidenti vurğuladı ki, onların daxili vəziyyəti ilə bağlı hər hansı bir şərh vermək istəməzdi: "Prinsip etibarilə biz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmırıq, xüsusilə indiki həssas məqamda. Ancaq müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Noyabrın 10-da imzalanmış Bəyanat icra edilir və tam icra edilməlidir. O Bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilibdir. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış Bəyanat icra ediləcəkdir. Əks təqdirdə Ermənistan daha da ağır duruma düşəcək. Yəni Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar. Biz yeni reallıqlar yaratmışıq".

Artıq regionda yeni reallıq yaranıb. Bunu Azərbaycan yaradıb. Onunla Ermənistan və eyni zamanda himayədarları barışmağa məcburdurlar. Bu gün Ermənistan bir neçə seçim qarşısındadır. Onların arasında ən məqbul seçim 10 noyabr Bəyanatının müddəalarını icra etməkdir. Yoxsa Azərbaycan Prezidentinin xüsusi vurğuladığı kimi, qarşı tərəf üçün daha da böyük problemlər yarana bilər.

Daha sonra jurnalistləri maraqlandıran Füzulidə tikintisinə başlanan hava limanı və dünyanı hələ də öz təsirində saxlayan COVID-19 koronavirusa qarşı vaksinasiya ilə bağlı məsələlərə dövlət başçısının əsaslı cavabları oldu.

Azərbaycan Prezidenti Füzuli Hava Limanının beynəlxalq əhəmiyyətli olacağını bir daha nəzərə çatdırmaqla, onun Qarabağın işğaldan azad edilmiş ərazilərində yeni həyat üçün olduqca vacib infrastruktur olduğunu bildirdi: "...Əgər bütün işlər plan üzrə getsə, aeroport payızın əvvəlində istifadəyə veriləcək. Bu, bizə həmin hava limanından həm xaricdən alacağımız yüklər nəzərə alınmaqla ərazilərin bərpası üçün, həm də qonşu dövlətlərin vətəndaşlarının Şuşa şəhərinə rahat gedib-gəlmələri üçün istifadə etməyimizə imkan verəcək. Ona görə ki, aeroport ilə eyni vaxtda Şuşa şəhərinə iki avtomobil yolu tikilir. Həmin yollardan birinə mən "Qələbə" yolu adı vermişəm..."

Prezident, Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın xüsusi təyinatlı qoşunları məhz həmin yolla meşələrdən və qayalardan keçərək Şuşa şəhərinə gediblər. Nisbətən aran ərazidən keçən digər yol isə aeroportdan birbaşa gediş-gəlişi təmin edəcək. Turistlər də belə bir imkana malik olacaqlar. Bu isə Azərbaycanın daha da güclü, qüdrətli inkişafı üçün mühüm şərtlərdən biridir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Qərb Rusiyanı sanksiya «yağış»ına tutdu
## Moskva cavab tədbirləri hazırlayır

Qərb dövlətləri rusiyalı müxalif siyasətçi Aleksey Navalnının zəhərlənməsi və ardınca həbsxanaya salınması ilə əlaqədar Moskvaya qarşı tətbiq olunması gözlənilən sanksiyaların məzmununu açıqlamışdır. Sanksiya marafonunu Avropa İttifaqı (Aİ) başlamış və dərhal ABŞ avropalı tərəfdaşlarına qoşulmuşdur.

Aİ-nin "qara siyahı"sına Rusiyanın dörd yüksəkvəzifəli məmuru - İstintaq Komitəsinin sədri Aleksandr Bastrık Federal Penitensiar Xidmətin direktoru Aleksandr Kalaşnikov, Milli Qvardiyanın komandanı Viktor Zolotov və baş prokuror İqor Krasnov düşmüşdür. Sözügedən şəxslərin hamısının Aİ-nin ərazisinə girişi, həmçinin Aİ ölkələrinin banklarında vəsait saxlaması qadağan edilmişdir.

Beləliklə, Aİ insan hüquqlarının pozulmasına görə nəzərdə tutulan tədbirləri əhatə edən yeni mexanizm çərçivəsində ilk dəfə Rusiyaya qarşı sanksiyalar tətbiq etmişdir. Əvvəllər belə məhdudiyyətlər ya ayrı-ayrı ölkələrə qarşı elan edilən ümumi sanksiyalar çərçivəsində, ya da xüsusi mexanizmlər çərçivəsində, məsələn, kimyəvi silahlardan istifadəyə görə tətbiq olunurdu. Yeri gəlmişkən, Aİ Navalnı işi ilə əlaqədar yüksəkvəzifəli rusiyalı məmurları ilk dəfə hədəfə almamışdır. Ötən il oktyabrın 15-də Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikov, Prezident Administrasiyası rəhbərinin birinci müavini Sergey Kiriyenko, Prezident Administrasiyasının daxili siyasət idarəsinin rəisi Andrey Yarin, müdafiə nazirinin müavinləri Aleksey Krivoruçko və Pavel Popov, habelə Sibir Federal Dairəsində səlahiyyətli nümayəndə Sergey Menyaylo Aİ-nin "qara siyahı"sına düşmüşlər.

ABŞ-ın sanksiya siyahısı daha genişdir. Məhdudiyyətlər eyni vaxtda üç nazirliyin - Maliyyə Nazirliyi, Ticarət Nazirliyi və Dövlət Departamentinin xətti ilə tətbiq olunmuş və bir neçə əsas qanunvericilik aktına əsaslanmışdır. Maliyyə Nazirliyinin xətti ilə sanksiyaya məruz qalan yeddi rusiyalı məmurun adları açıqlanmışdır. Bunlar Federal Penitensiar Xidmətin rəisi Aleksandr Kalaşnikov, baş prokuror İqor Krasnov, Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikov, Prezident Administrasiyası rəhbərinin birinci müavini Sergey Kiriyenko, Prezident Administrasiyasının daxili siyasət idarəsinin rəisi Andrey Yarin, müdafiə nazirinin müavinləri Aleksey Krivoruçko və Pavel Popovdur. Vaşinqtonun versiyasına görə, bu məmurların Navalnının zəhərlənməsi və azadlıqdan məhrum edilməsində əli var.

ABŞ Ticarət Nazirliyinin xətti ilə sanksiyalara məruz qalan təşkilatların adları da açıqlanmışdır. Sanksiya siyahısında Rusiyanın "Ximmed", "Femteko", "Interlab", "Labinvest", "Analit Products", "İntertek "nstruments", "Farmkontrakt", "Rau Farm" və "Regionsnab" şirkətləri yer almışdır. Eyni zamanda kimya məhsullarının istehsalı ilə əlaqəli üç elmi mərkəz - Rusiya Müdafiə Nazirliyinin 27-ci Elmi Mərkəzi və 33-cü Mərkəzi Elmi-Tədqiqat İnstitutu, habelə Dövlət Üzvi Kimya və Texnologiya Elmi-Tədqiqat İnstitutu ABŞ-ın sanksiyalarına məruz qalmışdır. Bundan başqa, ABŞ Ticarət Nazirliyinin sanksiya siyahısına Almaniyanın üç müəssisəsi - "ChimConnect Gmbh", "Pharmcontract" və "Riol-Chemie" şirkətləri, həmçinin İsveçrənin "ChimConnect AG" şirkəti düşmüşdür. Vaşinqton hesab edir ki, bu təşkilatlar kütləvi qırğın silahlarının və kimyəvi silahların yaradılması və yayılmasında iştirak edə bilərdilər.

Eyni zamanda ABŞ Rusiyaya müdafiə məhsulları, texnologiyaları və xidmətlərinin ixracını qadağan etmişdir. ABŞ-ın Dövlət katibi Entoni Blinkenin verdiyi məlumata görə, bu qaydada istisna yalnız hökumətlərarası kosmik əməkdaşlığa şamil ediləcək. Sərnişin aviasiyasının təhlükəsizliyinin təmin edilməsi ilə əlaqəli ixracat da zərər görməyəcək. Lakin ticari kosmik əməkdaşlıq altıaylıq keçid dövründən sonra dayandırılacaq. Yeri gəlmişkən, Rusiyaya müdafiə təyinatlı malların ixracına qoyulan qadağa 2018-ci ildə Böyük Britaniyada Sergey Skripalın zəhərlənməsindən sonra Rusiyaya tətbiq olunmuş sanksiyaların genişləndirilməsi mənasına gəlir.

ABŞ Dövlət Departamenti bəyan etmişdir ki, tətbiq olunmuş sanksiyalar azı 12 ay qüvvədə qalacaq və yalnız bundan sonra ləğv edilə bilər - bir şərtlə ki, Rusiya hakimiyyət orqanları kimyəvi və bioloji silahlardan beynəlxalq hüquq normalarına zidd olaraq və öz vətəndaşlarına qarşı istifadə etməyəcəyinə etibarlı zəmanət versin. Vaşinqton bu istiqamətdə ilk addım kimi Navalnının dərhal və qeyd-şərtsiz azadlığa buraxılmasını tələb edir.



Bütün bunlarla yanaşı, ABŞ Administrasiyası Rusiyaya münasibətdə sanksiya təzyiqini dayandırmaq niyyətində deyil. "Bloomberg" Agentliyi administrasiyanın nümayəndəsinə istinadən xəbər verir ki, yenicə tətbiq olunmuş məhdudiyyətlər yalnız başlanğıcdır, başqa sanksiyalar da olacaq. Administrasiyanın nümayəndəsi əlavə etmişdir ki, "ABŞ insan hüquqlarının pozulmasına görə tədbir görüləcəyini göstərmək istəyir".

Aİ və ABŞ-ın Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etməsi Moskvada sərt reaksiya doğurmuşdur. Kreml sanksiyaların cavabsız qalmayacağını bəyan etmişdir. Rusiya Xarici İşlər Nazirliyi bildirmişdir ki, Aİ və ABŞ-ın yeni sanksiyalarının real səbəbi diqqəti daxili problemlərdən yayındırmaq cəhdidir. Nazirliyin fikrincə, Aİ-də bu problemlər koronavirusa qarşı kütləvi peyvəndləmənin təşkili ilə əlaqədardır: Avropa dövlətləri vahid həll yolunu razılaşdıra bilmirlər. Öz növbəsində, ABŞ özünün timsalında kimyəvi tərksilah sahəsində "ədalət uğrunda mübariz" obrazı yaratmaq istəyir.

Məsələ ilə əlaqədar Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirmişdir ki, Moskva yeni sanksiyaları qəbuledilməz hesab edir. Onun dediyinə görə, bu cür məhdudiyyətlər Rusiya ilə ABŞ və Aİ arasında onsuz da acınacaqlı vəziyyətdə olan münasibətlərə əhəmiyyətli dərəcədə zərər verir. Peskov baş vermiş hadisəni Rusiyanın daxili işlərinə müdaxilə kimi qiymətləndirmişdir: "Bu cür qərarları heç bir əsası olmayan cəfəngiyyat hesab edirik". Mətbuat katibi məlumat vermişdir ki, Rusiyanın müvafiq nazirlikləri cavab sanksiyalarının layihəsini hazırlayıb dövlət rəhbərliyinə təqdim edəcək.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Qazimizin görmə qabiliyyəti bərpa edilib

Vətən müharibəsinin iştirakçısı Arif Hacıyev döyüşlər zamanı aldığı zədədən huşunu itirib, eyni zamanda bir gözündən yara alıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, israilli həkim tərəfindən üçqat prosedur əməliyyatı aparılıb. Nəticədə qazinin gözünün içərisinə okulyar bir linza yerləşdirilib və israilli donordan təzə bir kornea (transplantasiya edilmiş göz bəbəyi) köçürülüb. Əməliyyatdan öncə qazimizin bir gözünün görmə qabiliyyəti tamamilə itmişdi. Həyata keçirilmiş uğurlu əməliyyat nəticəsində qazimizin həmin gözünün görmə qabiliyyəti bərpa edilib və 20 faizə yüksəlib.

Onun sağalma prosesi getdikcə daha da yaxşılaşacaq.

Xatırladaq ki, "YAŞAT" Fondunun təşəbbüsü, İsrailin Azərbaycandakı səfirliyinin və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təşkilati dəstəyi ilə İsraildən Azərbaycana tibbi-humanitar yardım məqsədilə oftalmoloqlardan ibarət nümayəndə heyəti gəlib.

# İşğaldan azad olunmuş ərazilərə keçməyə cəhd göstərən şəxslər saxlanılıb

Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, işğaldan azad olunmuş ərazilərə qanunsuz yollarla ayrı-ayrı şəxslərin keçməyə cəhd göstərmələri hallarına təəssüf ki, hələ də rast gəlinir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, martın 3-də gecə saatlarında Laçın Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş tədbirlər nəticəsində Füzuli rayonunun işğaldan azad olunmuş kəndlərinə nəzarət postlarından kənar yollarla daxil olmağa cəhd göstərən şəxslər saxlanılıb və aidiyyəti üzrə Füzuli RPŞ-yə gətiriliblər. Araşdırmalarla onların Füzuli rayon Zobucuq qəsəbə sakinləri R.Əsədov, C.Şükürov, M.Məhərrəmov, Ş.Süleymanov, İ.Mahmudlu, N.Əmirov, C.Məmmədov, Z.Orucov və S.Əsədov olmaları müəyyən edilib.

Qayda pozuntusuna yol vermiş həmin şəxslər barəsində qanuna müvafiq tədbirlər görülüb.

# Qarabağı tərk edən ermənilərin 70 faizi geri qayıtmayacaq
## BMT-nin hesabatına görə, onlar Ermənistanda acınacaqlı durumda yaşayırlar

*Əvvəli 1-ci səh.*

Görünən odur ki, çətin və dözülməz həyat şəraitindən bezən ermənilərin böyük hissəsi müharibənin başlanmasından istifadə edərək Qarabağı tərk edib. Çoxları Ermənistanda qalmayaraq xaricə üz tutub.

BMT-nin Ermənistanda apardığı araşdırmaya əsasən, Qarabağı tərk edən ermənilərin 60 faizi əsas problem kimi yardımların ədalətsiz paylanmasından şikayətlənib. Onların təqribən 43 faizi uşaqlarının təhsil almaq, 40 faizi isə normal mənzildə yaşamaq imkanına malik olmadığını bildirib. Bundan başqa, ermənilərin 73 faizdən çoxu güzəranlarının pis olduğunu qeyd edib.

Qarabağ ermənilərinin yaşamaq istəmədikləri və ya acınacaqlı duruma düşdükləri Ermənistanda siyasi və iqtisadi problemlər hər ötən gün daha da dramatikləşir. Müxalifət ordunun yardımı ilə baş nazir Nikol Paşinyanın hakimiyyətdən devrilməsinə çalışsa da, hələlik məqsədinə nail ola bilmir. Paşinyanın əvvəlki kimi reytinqi yüksək olmasa da, siyasi ziddiyyətlərin fonunda cəmiyyətdə müəyyən dəstəyə malik olduğu şübhə yaratmır. Ona görə də baş nazir onun üçün problemə çevrilmiş silahlı qüvvələrin baş qərargahının rəisi Onik Qasparyanın vəzifədən azad edilməsi istiqamətində fəaliyyətini davam etdirir.

Ermənistan prezidenti Armen Sarkisyan Onik Qasparyanın vəzifəsindən azad edilməsi barədə Nikol Paşinyanın vəsatəti ilə bağlı konstitusiya məhkəməsinə müraciət edib. O, müraciətində "Hərbi xidmət və hərbi qulluqçuların statusu haqqında" qanuna və konstitusiyaya dəyişikliyə nəzər yetirməsini xahiş edib. Konstitusiya məhkəməsinin Qasparyanın istefası haqda qərar qəbul etməsi gözlənilir.

Bundan narahat olan müxalifətin "Vətənin qurtuluşu hərəkatı" prezidentlə fövqəladə görüş tələb edən bəyanatla çıxış edib. Bəyanatda deyilir ki, hərəkat baş qərargah rəisi Onik Qasparyanın vəzifədən azad edilməsi ilə bağlı prezident Armen Sarkisyanın qərarından narahatlığını ifadə edir. Çünki Sarkisyanın konstitusiya məhkəməsinə etdiyi müraciət Qasparyanın vəzifəsindən azad edilməsinə mane olmur.

Konstitusiya hüququ üzrə mütəxəssis Qohar Meloyan baş qərargah rəisinin işdən çıxarılması ilə əlaqədar başlayan prosesin qanunsuz olduğunu iddia edir. O, özünün "Facebook" səhifəsində yazıb ki, baş qərargah rəisi vəzifələrini yerinə yetirməyə davam edəcək: "Konstitusiyanın 155-ci maddəsinin 3-cü hissəsində bu öz əksini tapıb. Silahlı qüvvələrin baş qərargah rəisi baş nazirin təklifi ilə konstitusiya əsasında müəyyən edilmiş müddətə respublika prezidenti tərəfindən təyin olunur... Başqa sözlə, konstitusiya baş qərargah rəisinə xüsusi bir status verir və nə respublika prezidentinə, nə də baş nazirə baş qərargah rəisini istefaya məcbur etməyə imkan vermir".

Beləliklə, mövcud vəziyyət qarşıdakı dövrdə Ermənistanda siyasi baxımdan ağır fəsadlar yaranacağını göstərir. Ona görə ekspertlər ölkədəki böhranın daha da dərinləşəcəyini labüd hesab edirlər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyev Azərbaycanı uğurlu innovativ tədbirlərlə yeni zəfərlərə aparır



***Dövlət başçısı İlham Əliyev 18 yanvar 2021-ci il tarixdə Sumqayıt Sənaye Parkında iki yeni sənaye müəssisəsinin təməlini qoydu və bir yeni istehsal müəssisəsinin açılışını həyata keçirdi. Üç gün sonra Azərbaycan Respublikası ilə Türkmənistan arasında Xəzər dənizində yerləşən "Dostluq" neft və qaz yatağının birgə işlənilməsinə dair olduqca əhəmiyyətli bir razılaşma imzalandı. Ardınca bölgədə ölkələr arasında nəqliyyat kommunikasiyalarının açılması ilə əlaqədar fəaliyyətə başlandı və beynəlxalq işçi qrupunun toplantısı keçirildi. Fevralın 2-də isə Prezident İlham Əliyev Azərbaycanın 2030-cu il üçün beş əsas milli prioritetini hədəflədi. 20 fevral 2021-ci ildə çox önəmli olan Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyasının iclası keçirildi və 11 mühüm sənəd imzalandı. 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış parlaq hərbi qələbədən sonra olduqca qısa zaman kəsiyində ölkənin sürətli və innovativ inkişafına yönəlik bu yeni təşəbbüslər və fəaliyyət iqtisadiyyatın dayanaqlılığı, ölkənin inkişaf strategiyasının davamlılığı və inklüzivliyi, bütün xalqın, çağdaş və gələcək nəsillərin rifahına qulluq etməsinin təzahürüdür.***

Azərbaycan Respublikasının bugünkü uğurlu inkişafının əsasında səmərəli və innovativ dövlət idarəçiliyi durur. Bu prosesin əsasını Ümummilli Lider Heydər Əliyev qoymuş və olduqca mürəkkəb bir şəraitdə müstəqilliyini yenicə bərpa etmiş ölkənin dövlət idarəçilik sistemini qurmuşdur. Ölkə siyasi, iqtisadi və sosial böhrandan çıxmış, stabil inkişaf prosesinə qoşulmuşdur. Son 17 ildə isə Prezident İlham Əliyevin dövlət idarəçiliyində tətbiq etdiyi, müasir elmə əsaslanan innovativ idarəçilik texnologiyaları inkişaf prosesini yeni səviyyəyə qaldırmaq imkanı yaratdı. Bu, idarəçilik elminə əsaslanan tam yeni texnologiyalardır və ilk dəfə kompleks şəkildə Prezident İlham Əliyev tərəfindən həyata keçirilərək, istedada, geniş və dərin intellektə, ən müasir peşə biliklərinə əsaslanır. Ölkədə Birinci vitse-prezident institutunun formalaşması, bu vəzifədə Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyədə parlaq fəaliyyəti iqtisadi nailiyyətlərin sosial və humanitar uğurlara səmərəli transformasiyasını təmin etmişdir. Bunun nəticəsidir ki, beynəlxalq təşkilatların dəyərləndirilmələrinə görə, müstəqilliyini nisbətən qısa bir zamanda bərpa etmiş Azərbaycan Respublikası öz iqtisadi və sosial göstəriciləri ilə yüz illər tarixi olan bəzi inkişaf etmiş ölkələr səviyyəsindədir, digər hallarda isə onları da geridə qoyub və şərhsiz dünya lideridir. Bu, xüsusilə XXI əsrdə müasir dünyanın əsas prioriteti olan hazırkı və gələcək nəsillərin maraqlarına xidmət edən davamlı inkişaf və dayanaqlı iqtisadiyyata əsaslanan, hər bir vətəndaşın rifahını nəzərdə tutan inklüziv cəmiyyətin formalaşmasına aiddir. Bu gün Prezident İlham Əliyev tərəfindən ən müasir elmə əsaslanan belə bir platformanın yaradılması, 2030-cu il üçün hədəflənmiş milli prioritetlərin reallığından xəbər verir.

Hədəflər arasında davamlı inkişaf edən yüksək rəqabətqabiliyyətli dayanaqlı iqtisadiyyatın formalaşması prosesinin daha da sürətləndirilməsi ən vacib prioritetdir. Davamlı inkişaf edən, yüksək rəqabətqabiliyyətli dayanaqlı iqtisadiyyatın bir neçə göstəricisi mövcuddur. Onların arasında ən əsası enerjidən səmərəli istifadədir. Bu göstəricinin vacibliyi əsasən üç amillə bağlıdır. Birincisi, az enerji istifadəsi ilə daha çox dəyəri olan məhsul istehsal etmək istehsalat xərclərini azaldır ki, bu da iqtisadi baxımdan əlverişlidir. İkinci xüsusiyyət onun ilə əlaqədardır ki, hazırda dünyada istifadə olunan enerjinin 70 faizdən çoxunu kömür, neft, qaz və digər oxşar "fossil" kimi məlum olan yanacaq mənbələri təşkil edir və onlar da əsasən bərpa olunmayan təbii ehtiyatlara aiddir. Eyni iqtisadi nəticə üçün bu enerji mənbələrinin daha az sərf olunması onların gələcək nəsillər üçün qorunmasına və gələcəkdə daha səmərəli istifadəsinə xidmət edir. Nəhayət, nisbətən az enerjidən istifadə etməklə daha çox məhsul istehsalı ətraf mühitə atılan və iqlim dəyişmələrinə təsir göstərən istixana qazlarının azalması üçün vacibdir. Enerjidən səmərəli istifadə bərpa olunan enerjiyə tam keçənə qədər və bu məqsədə nail olduqdan sonra da davamlı inkişaf, dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyətin formalaşması üçün vacib amil olacaq.

İnnovativ və yüksək rəqabətə dayanıqlı iqtisadiyyatın vacib xüsusiyyəti olan enerjidən səmərəli istifadə ilə əlaqədar vəziyyət beynəlxalq statistikada bir neçə üsulla dəyərləndirilir. Onlardan biri müxtəlif ölkələrdə bir vahid enerjinin istifadəsi ilə hansı dəyərdə ümumdaxili məhsulun istehsal olunmasına əsaslanır. Bu zaman məhsulun dəyəri, alıcılıq qabiliyyəti nəzərə alınmaqla, ABŞ dollarında, enerji vahidi kimi isə bir kiloqram neftdə olan enerjinin miqdarı götürülür. Enerji müxtəlif mənbələrdən, o cümlədən istilik, atom elektrik stansiyalarından və yaxud bərpa olunan su, günəş, külək və digər mənbələrdən alına bilər. Lakin miqdarca enerji vahidi kimi bir kiloqram neftdəki (bir bareldə mənbəyindən asılı olaraq təxminən 136 kiloqrama yaxın neft olur) enerji götürülür. Bu yanaşma onunla əlaqədardır ki, müəyyən zaman kəsiyində dünyada neftin qiyməti eynidir və bu da müxtəlif ölkələrin iqtisadiyyatında sərfiyyat-qazanc balansını müqayisə etməyə imkan verir.

Şəkil 1-dən göründüyü kimi, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və BMT-nin 2020-ci ilə mövcud olan hesabatlarına əsasən, Azərbaycan Respublikasında bir vahid enerjinin istifadəsi ilə 11,6 ABŞ dolları dəyərində məhsul istehsal edilir və yaxud xidmətlər təqdim olunur.




**Şəkil 1.** Bir vahid enerjinin istifadəsi ilə istehsal olunmuş ümumdaxili məhsulun dəyəri (ABŞ dolları alıcılıq qabiliyyəti pariteti ilə). *Mənbə: Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, BMT, 2020.*

Qeyd edilməlidir ki, 2003-cü ildə Azərbaycanda bir vahid enerjinin istifadəsi nəticəsində istehsal olunmuş ümumdaxili məhsulun dəyəri 2,5 ABŞ dolları təşkil edirdi. Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının məlumatlarına əsasən, son 17 ildə innovativ idarəetmə və istehsal texnologiyaların tətbiqi nəticəsində Azərbaycanda enerjidən istifadə səmərəliliyi 4 dəfədən çox artmışdır. Qazanılmış nailiyyət çox uğurlu hesab edilir, iqtisadi baxımdan yüksək inkişaf etmiş ölkələr səviyyəsindədir, bəzi hallarda isə daha üstündür. Məsələn, dünyada bir barel neftin dəyəri 50 ABŞ dolları təşkil etdiyi və Azərbaycanda miqdarca bir kiloqram neftdə olan enerjinin istifadəsi nəticəsində 11,6 ABŞ dolları dəyərində məhsul istehsal olunduğu halda səmərəlilik indeksi 31,5-ə bərabərdir. Həmin miqdarda enerjinin istifadəsi ilə 9,63 ABŞ dolları dəyərində məhsul istehsal edən və əhalisinin sayı Azərbaycanla təxminən eyni olan İsveçdə isə səmərəlilik göstərici daha aşağıdır və 26,1 təşkil edir. Beynəlxalq təşkilatların hesabatlarına əsasən, hazırda Azərbaycan iqtisadiyyatının enerji səmərəliliyi 17 faiz İsveçdən yüksəkdir. Göründüyü kimi, Azərbaycan bu gün artıq rəqabətqabiliyyətli dayanaqlı iqtisadiyyata malikdir və ölkə Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilən prioritetlər bu göstəricini daha da yüksəldəcək.

Azərbaycanda enerjidən istifadə səmərəliliyinin yüksək olmasını bəzi şərhçilər ölkə iqtisadiyyatının xüsusiyyətləri, karbohidrat istehsalı və ixracı ilə əlaqələndirirlər. Bu mülahizənin düzgün olduğu təqdirdə digər, dünyada tanınmış neft və qaz istehsal və ixrac edən ölkələrdə də eyni vəziyyət müşahidə edilməlidir. Lakin Şəkil 2-də təqdim olunmuş məlumatlar göstərir ki, bu qrupa daxil olan dünyanın əsas neft və qaz ixracatçıları arasında da bizim ölkə enerjinin səmərəli idarə edilməsi sahəsində liderdir. Beynəlxalq təşkilatların hesabatlarına görə, Azərbaycan Respublikası iqtisadiyyatının enerji səmərəliliyi Qətər, Oman, Səudiyyə Ərəbistanı, Rusiya Federasiyası, İran, Qazaxıstan kimi neft və qaz ixrac edən ölkələrin göstəricilərindən 1,5-2 dəfə yüksəkdir. Beynəlxalq təşkilatların hesabatlarına əsasən, karbohidratları istehsal və ixrac edən ölkələr arasında yalnız Norveç Azərbaycan Respublikası ilə enerjinin səmərəli idarə edilməsi göstəricisinə görə rəqabət apara bilər (şəkil 2).




**Şəkil 2.** Neft və qaz ixrac edən ölkələr: bir vahid enerjinin istifadəsi ilə istehsal olunmuş ümumdaxili məhsulun dəyəri (ABŞ dolları alıcılıq qabiliyyəti pariteti ilə). *Mənbə: Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, BMT, 2020.*

Şəkil 2-dən göründüyü kimi, beynəlxalq təşkilatlar tərəfindən son ildə dərc edilmiş məlumatlara əsasən, Azərbaycan Respublikası tanınmış neft və qaz ixrac edən ölkələr arasında da təbii ehtiyatların səmərəli idarə edilməsi sahəsində liderdir. Bir daha qeyd edilməlidir ki, Azərbaycan Respublikasında son 17 ildə enerji səmərəliliyi 4 dəfədən çox artmışdır. Bu ölkə iqtisadiyyatının artıq yüksək rəqabətqabiliyyətli və dayanaqlı olmasından xəbər verir. Əldə edilmiş bu nailiyyət göstərir ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş prioritetlər bərpa edilən enerji şəraitində də olduqca perspektivli, realdır və ölkə iqtisadiyyatının rəqabətqabiliyyəti davamlı artacaq.

Müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasında dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması hər zaman dövlət siyasətinin vacib istiqaməti olmuşdur. Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyində müasir elmə əsaslanan yeni sinergetik texnologiyaların tətbiqi, bu prosesdə ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın fəal iştirakı nəticəsində sosial sahədə yüksək nəticələr əldə edilmişdir. Göstərilən istiqamətdə ölkədə yüksək sosial standartlara nail olunmuş və bu fakt əsas beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır. O hesabatlardan biri bu yaxınlarda Davos Dünya İqtisadi Forumunun təsisçisi və əvəzsiz prezidenti professor K.Şvabın rəhbərliyi ilə hazırlanmış və dərc edilmişdir. Hesabatda dünyanın 146 ölkəsinin iqtisadi imkanları və bu imkanların ədalətli sosial siyasətə, əhalinin rifahına necə xidmət etdiyi təhlil edilmişdir. 600 səhifədən çox olan bu hesabatda Azərbaycan Respublikası iqtisadi imkanlarından sosial ədalətin və cəmiyyətdə bərabərliyin yüksək səviyyədə təmin olunması üçün istifadə edən və bu istiqamətdə ən uğurlu siyasət həyata keçirən ölkə kimi təqdim edilib. Qeyd edilən məlumat şəkil 3-də müqayisəli şəkildə təqdim olunmuşdur. Azərbaycan Respublikasının göstəriciləri ABŞ, Almaniya, Danimarka, Braziliya və Cənubi Afrika kimi iqtisadi inkişaf etmiş və bir sıra istiqamətlərdə lider ölkələrlə müqayisə edilir. Qeyd edilməlidir ki, bu şəkil professor K.Şvabın Davos Dünya İqtisadi Forumu üçün hazırlanmış hesabatında təqdim olunduğu kimi verilmişdir.

Şəkil 3-dən göründüyü kimi, Azərbaycan Respublikasının iqtisadi imkanları təqdim edilmiş "böyük yeddilik" (G 7), "böyük iyirmilik" (G 20) ölkələrinin mütləq əksəriyyətindən az olsa da, ölkə ədalətli sosial siyasəti uğurla tətbiq edir və artıq hazırda bu sahədə dünya lideridir. Bu isə onu göstərir ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən 2030-cu il üçün prioritet kimi hədəflənmiş sosial məqsədlərə uğurla nail olunacaq.




**Şəkil 3.** İqtisadiyyat və sosial siyasət: seçilmiş G 7, G 20 ölkələri və Azərbaycan Respublikası. *Mənbə: Dünya İqtisadi Forum, Davos, 2018, 2019.*

2030-cu il üçün planlaşdırılmış hədəflər arasında davamlı inkişaf, dayanaqlı iqtisadiyyat və uğurlu sosial siyasətin nəticəsi olan inklüziv cəmiyyətin formalaşması milli prioritet kimi müəyyən edilmişdir. Davamlı inkişafın nəticəsi kimi formalaşan inklüziv cəmiyyət son illərdə dünyanın əsas qlobal prioriteti kimi qəbul edilmişdir. İnklüziv inkişaf dövlət idarəçiliyinin elə bir yoludur ki, bu zaman ölkə hərtərəfli inkişaf edir və bu prosesin müsbət nəticələrini cəmiyyətin hər üzvü hiss edir. Ölkələrin bu sahədə əldə etdiyi nəticələri beynəlxalq təşkilatlar İnklüziv İnkişaf İndeksi (İİİ) kimi 12 iqtisadi, sosial, ekoloji və demoqrafik göstərici əsasında dəyərləndirir. Bu göstəricilər elə seçilib ki, onlar həm ölkənin hazırkı inklüzivlik durumu, həm də gələcəkdə inklüzivliyi təmin etmək potensialından xəbər versin.

Dünya ölkələrində inklüziv inkişafın vəziyyəti və İnklüziv İnkişaf İndeksinin (İİİ) hesablanması beynəlxalq ekspertlər tərəfindən ilk dəfə 2018-ci ildə aparılmışdır və Davos Forumunun rəsmi hesabatı kimi dünya ictimaiyyətinə təqdim edilmişdir. Bu tədqiqata əsasən, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69-a bərabərdir. Bu, dünya ölkələri arasında 25-ci yerdir və olduqca yüksək nəticədir. Qlobal miqyasda ən müasir prioritet olan inklüziv cəmiyyətin formalaşması sahəsində Azərbaycan Respublikası ABŞ, Yaponiya, İsrail, İtaliya, İspaniya, Portuqaliya və digər dünya liderlərini geridə qoyub (şəkil 4).




**Şəkil 4.** İqtisadi yüksək inkişaf etmiş ölkələr və Azərbaycan Respublikasının inklüziv inkişaf indeksləri. *Məlumat mənbəyi: Dünya İqtisadi Forum, Davos, 2018, 2019.*

Qeyd olunmalıdır ki, şəkil 4-də Azərbaycan ilə yanaşı, təqdim edilmiş ölkələr ya "böyük yeddilik" (G 7) qrupuna daxildir və ya dünyanın 39 iqtisadi baxımdan ən inkişaf etmiş İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvüdürlər. Onların iqtisadi imkanları Azərbaycan Respublikasından əhəmiyyətli dərəcədə yüksəkdir. Dünya Bankının 2021-ci ildə dərc edilmiş hesabatlarına əsasən, şəkil 4-də göstərilən ölkələrdə adambaşına gəlirlər alıcılıq qabiliyyəti nəzərə alınmaqla Azərbaycan Respublikasından 2,1 - 4,3 dəfə çoxdur. Buna baxmayaraq, bizim ölkənin inklüziv cəmiyyətin formalaşması sahəsində qazandığı nailiyyətlər daha yüksəkdir.

Nisbətən az vəsait hesabına daha yüksək iqtisadi və sosial nəticələrin əldə edilməsi yalnız dövlət idarəçiliyində müasir elmin, innovativ texnologiyaların tətbiqi nəticəsində mümkündür. Prezident İlham Əliyevin dövlət idarəçiliyində dünyada ilk dəfə tətbiq etdiyi yeni, sinergetik, komplementar və kompensasion yanaşmaların imkanlarına əsaslanan texnologiyalar kompleksi iqtisadiyyatın dayanıqlılığını, inkişafın davamlılığını və cəmiyyətin inklüzivliyini qısa müddətdə yeni yüksək səviyyəyə qaldırmaq imkanı yaratdı. Bunun nəticəsidir ki, hazırda beynəlxalq təşkilatların dəyərləndirmələrinə görə, Azərbaycan Respublikası bu sahələrdə dünya liderləri sırasındadır, bəzi hallarda isə dünya lideridir. Qeyd edilməlidir ki, Prezident İlham Əliyev tərəfindən tətbiq olunan innovativ dövlət idarəçiliyi texnologiyaları yüksək səmərəliliyini 44 günlük şanlı Vətən müharibəsi şəraitində parlaq nümayiş etdirdi.




**Şəkil 5.** İnklüziv inkişaf vahidinin dəyəri: G 7 ölkələri və Azərbaycan. *Mənbə: Dünya Bankı, 2020; Dünya İqtisadi Forum, Davos, 2018, 2019.*

Müasir elm və biliyə əsaslanan və Azərbaycanın dövlət idarəçiliyində istifadə olunan innovativ texnologiyaların inklüziv cəmiyyətdə həlledici amil olması daha bir beynəlxalq araşdırmadan da aydın olur. Şəkil 5-də Azərbaycan Respublikasında və "böyük yeddilik" (G 7) ölkələrində inklüziv inkişaf indeksinin (İİİ) hər vahidinin "dəyəri" haqqında məlumat təqdim olunmuşdur. Şəkil 5-dən göründüyü kimi, Azərbaycan Respublikasında inklüziv inkişaf indeksinin hər vahidi 3840 ABŞ dollarına (alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla) başa gəlir. Eyni nəticəni əldə etmək və bu vəziyyəti gələcəkdə də təmin etmək üçün müqayisə edilən ölkələr 2,3-3,5 dəfə çox vəsait sərf edirlər.

***Bir neçə gün öncə Prezident İlham Əliyev dörd saatdan çox və dörd dildə 40-dan çox ölkənin müxbiri üçün keçirdiyi mətbuat konfransında digər mühüm məsələrlə yanaşı, həm də ölkənin gələcək inkişaf təmayülləri ilə bağlı baxış bucağını ortaya qoydu. Dövlət başçısı Azərbaycanın postkonflikt və postpandemiya dönəmində keyfiyyətcə yeni strateji mərhələyə keçid etdiyini və bu dönəm üçün də hərtərəfli inklüziv inkişafın başlıca qayə olduğunu bütün dünyaya bəyan etdi.***

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# İQTİSADİ İNKİŞAF və SOSİAL RİFAH

# Ağdam tezliklə yenidən ağ günlərə qovuşacaq

## Rayonun bərpadan və qayıdışdan sonra böyük iqtisadi yüksəlişi gözlənilir





İşğaldan azad edilmiş digər rayonlarda olduğu kimi, Ağdamda da geniş bərpa və quruculuq tədbirləri başlayıb. Müvafiq dövlət qurumları tərəfindən bunun üçün ətraflı araşdırmalar aparılır, addımlar atılır. Məqsəd hər bir sahənin yenidən dirçəldilməsi və rayonun iqtisadi potensialını hərəkətə gətirməkdir.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin əməkdaşı Əbdülrəhim Dadaşov bildirir ki, işğaldan əvvəl Yuxarı Qarabağ iqtisadi rayonunda ən çox suvarılan torpaqlar Ağdam rayonunda idi. Rayonun əkin sahələri Qarqar, Gülyataq, Xaçın, Qabartı çayları ilə suvarılırdı. Ağdamın kənd təsərrüfatı, həmçinin Xaçın çayı üzərində yerləşən Dərbənd və Tərtərçay üzərindəki Sərsəng su anbarlarından bəhrələnirdi. Bu gün isə əkin dövriyyəsinə cəlb edilən azad olunmuş ərazilərin suvarılması üçün yeni potensial da yaranıb. Belə ki, Suqovuşan, Xudafərin və Sərsəng su anbarları, Vəlvələçay və digər mənbələrin Ağdamın əkin torpaqlarının suvarılması üçün istifadə edilməsi rayonun kənd təsərrüfatının inkişafına böyük töhfə verəcək.

Rayonun 1988-ci ildən əkin sahələrinin strukturuna nəzər yetirdikdə görürük ki, onların 49,5 faizi taxıl zəmiləri, 48,9 faizi pambıq tarlaları olub. Respublikanın taxıl və pambıq əkini sahələrində Ağdamın payı müvafiq olaraq 1,4 və 2,5 faiz təşkil edib. 1980-1988-ci illərdə rayonda istehsal olunan taxıl respublika üzrə istehsalın 2,5 faizini təşkil etmişdir. Həmin dövr məhsuldarlığın respublika səviyyəsindən daha yüksək olması da taxıl istehsalında Ağdamın potensial imkanlarından xəbər verir. Tədqiqatlar göstərir ki, 2025-ci ilə qədər rayonda taxıl istehsalını 86,6 min tona çatdırmaq mümkündür. Bundan əlavə, 1980-ci illərdə burada üzümlüklərin, eləcə də meyvə və giləmeyvə bağlarının olması rayonun çoxillik bitki əkinçiliyi ənənəsini təsdiqləyir.

A. Dadaşov statistik məlumatlara əsasən deyir ki, pambıqçılıq rayon əhalisinin üstünlük verdiyi kənd təsərrüfatı sahəsi olub. İşğaldan öncəki dövr ərzində (1980-1988-ci illər) pambıqçılıqda respublika üzrə maksimum məhsuldarlıq 35,4 sentner olduğu halda, Ağdam rayonunda bu göstərici 48,3 sentnerə çatırdı. Həmin illər rayonda istehsal olunan pambıq respublika üzrə istehsalın təxminən 3 faizini təşkil edirdi. Məhsuldarlıq da respublika üzrə orta göstəricidən yüksək idi. İşğaldan azad dövr üçün aparılan araşdırmalar isə göstərir ki, 2025-ci ilə qədər pambığın intensiv üsullarla əkilib-becərilməsi hesabına rayonda 31,4 sentner məhsuldarlıqla istehsalı 10 min tona çatdırmaq mümkün olacaq ki, bu da ölkə üzrə pambıq istehsalının təxminən 2,5 faizi deməkdir.

Rayonun böyük potensialı olan digər bitkiçilik sahəsi tərəvəzçilikdir. Son illər ərzində Ağdamın işğala məruz qalmamış hissəsində tərəvəz əkinlərinə, xüsusilə soğan və sarımsaq istehsalına olan maraq bu trendin digər ərazilərə şamil ediləcəyinə əsas verir. İnnovativ tədbirlər nəticəsində rayonda digər bitki növləri ilə yanaşı, tərəvəz bitkilərinin əkin sahəsinin genişləndirilməsi və yüksək məhsuldarlığın əldə edilməsi hesabına istehsalın həcmini 2025-ci ildə 231,5 min tona çatdırmaq mümkündür.

Ekspert üzümçülüyün də Ağdamda ənənəvi təsərrüfat sahələrindən biri olduğunu bildirir. Tədqiqatlar göstərir ki, 1985-ci ildə rayon üzrə 21,3 min hektar sahədən 104 min ton üzüm toplanmışdı. Lakin sonrakı illər ərzində üzüm sahələri məhv edilərək 1988-ci ildə 15,5 min hektara düşmüşdü. 2019-cu ildə isə Ağdamın üzüm istehsalı cəmi 402 ton olmuşdur ki, bu da bağların böyük hissəsinin işğal altında qalması, eləcə də üzümlüklərin tərəvəz və digər bitki sahələri ilə əvəzləndiyindən irəli gəlir.

Ümumiyyətlə, rayonda üzümçülük sahəsinin ən məhsuldar dövrü 1985-ci ilə təsadüf edir. İşğaldan öncəki dövr (1980-1988) üzümçülükdə Ağdam üzrə məhsuldarlıq təxminən 68,4 sentner olmuşdu. Həmin illər ərzində rayonda üzüm istehsalı Azərbaycan üzrə istehsalın təqribən 7,2 faizini təşkil etmişdi. Bu potensiala əsaslanıb demək olar ki, üzümçülüyün, o cümlədən texniki üzüm sortlarının yetişdirilməsi Ağdamda şərabçılıq sektorunun da canlanmasına səbəb olacaq. Belə ki, 2025-ci ildə ölkə üzrə üzüm istehsalında Ağdam rayonunun payının 1,8 faiz təşkil edəcəyi (3,8 min ton) proqnozlaşdırılır.

Rayonda pilot layihə olaraq nar və xurma bağlarının salınması da həyata keçiriləcək. Ümumilikdə, 1980-1988-ci illərin təcrübəsi, ölkənin son illər ərzindəki aqrar innovativ inkişaf trendləri və statistik göstəricilərin təhlili göstərir ki, 2025-ci ilə qədər Ağdam rayonunda 35,7 min hektarlıq əkin və bağ sahələrində 373,2 min ton bitkiçilik məhsulları istehsalına imkan var. Məhz bu imkanlar nəzərə alınaraq, yaxın gələcəkdə rayonda 215 milyon manatlığa yaxın bitkiçilik məhsullarının istehsalı proqnozlaşdırılır.

2025-ci ilə qədər rayonda heyvandarlıq da bərpa olunacaq. Bu hesaba iri və xırdabuynuzlu heyvanlardan savayı, quşların sayının 1,1 milyon başa qədər, arı ailələrinin sayının isə 4,6 minə çatdırılması nəzərdə tutulur. Rayonun ölkə üzrə ət istehsalında 0,2, yun istehsalında təqribən 2,5 faiz payı olacaq. Süd və yumurta istehsalında isə bu göstərici müvafiq olaraq 10,8 və 1,8 faiz təşkil edəcək. Ağdamın həmçinin təxminən 400 ton barama istehsal etmək potensialı var.

Aqrar sahə ilə yanaşı, rayonda taxılın, südün, gön-dərinin emalı müəssisələrinin qurulması üçün böyük imkanlar da nəzərə alınmalıdır. Bu region üçün trend hesab edilən tərəvəzçilik sektoru üzrə emal müəssisələri, arıçılıq məhsullarının istehsalı imkanları da hesablanarsa, burada aqro-sənayenin təmərküzləşmiş və klasterial inkişafının iqtisadiyyata töhfəsinin sovet dövründəki potensialdan daha artıq olacağı şübhəsizdir.

Ekspert Ə. Dadaşov bildirir ki, kənd təsərrüfatı infrastrukturunun bərpası, yeni əkin sahələrinin və bağların salınması, otlaqların, eləcə də heyvandarlığın inkişafı üçün digər zəruri infrastrukturun bərpası nəticəsində məhsuldar dövrün başlanğıcı hesab olunan 2025-ci ildə Ağdam rayonunun ölkədəki kənd təsərrüfatı istehsalına birbaşa əlavə töhfəsinin dəyəri 641 milyon manat, yəni 4,5 faiz olacağı proqnozlaşdırılır. Təbii ki, bu proqnozlar sadəcə aqrar potensialı əhatə edir. Sonrakı dövrdə emal və dəyər zənciri üzrə aqro-sənaye potensialı da hesablanarsa, ümumi daxili məhsulda və yeni iş yerlərinin yaradılmasında həndəsi silsilə ilə artım olacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Fermerlər ötən il 52,3 milyon manatlıq kənd təsərrüfatı texnikası alıblar

2020-ci il ərzində "Aqroservis" ASC tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 52,3 milyon manat dəyərində kənd təsərrüfatı texnikası satılıb.



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, dövlət vəsaiti hesabına keçən il kənd təsərrüfatı məhsulları istehsalçılarına 266 traktor, 134 kotan, 147 səpici aqreqat, 54 taxılyığan kombayn, 54 kultivator, 115 traktor yedəkləri, ümumilikdə isə 612 texnika satılıb.

# DOST mərkəzlərində 303 mindən çox şəxsə xidmət göstərilib




**DOST mərkəzlərinin xidmətlərindən 2019-cu ildə 62 948 nəfər, 2020-ci ildə 2,8 dəfə çox olmaqla 177 632 nəfər istifadə edib.**

Bu ilin yanvar-fevral aylarında isə 62 516 nəfər mərkəzlərin xidmətlərindən faydalanıb.

2019-cu ilin may ayından Bakıda 3 DOST mərkəzi istifadəyə verilib. Paytaxtın 8 rayonunun (Yasamal, Səbail, Qaradağ, Xəzər, Piralلahı, Nizami, Sabunçu, Suraxanı) sakini DOST xidmətləri ilə əhatə olunub. Ümumilikdə DOST xidmətləri ilə əhatə olunanların sayı bu ilin 1 mart tarixinə 303 mini ötüb.

DOST mərkəzlərində dövlət sosial xidmətləri "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş rahatlığı prinsipi əsasında təqdim olunur. Vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi 97 faizdir.

142 - Çağrı mərkəzi tərəfindən isə 2020-ci ildə əvvəlki ilə nisbətən 3,3 dəfə çox olmaqla 673 374 vətəndaş müraciəti cavablandırılıb. Bu ilin yanvar və fevral ayları (81 051 müraciət) da daxil olmaqla Çağrı mərkəzi vasitəsilə 956 716 müraciətin cavablandırılması təmin olunub.

# Naxçıvan MR-də əhalinin sayı 51,4 min nəfər artıb

Son illər muxtar respublikanın sosial-iqtisadi həyatında əldə olunmuş davamlı inkişaf, həyata keçirilən islahatların səmərəliliyi, səhiyyə sistemində aparılan qabaqcıl tədbirlər yaşayış səviyyəsinin və güzəranın yaxşılaşdırılmasına, əhali artımına əlverişli şərait yaradıb.



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, muxtar respublikada 1 yanvar 2021-ci il tarixə əhalinin sayı 2010-cu ilin sonu ilə müqayisədə 51,4 min nəfər artaraq 461,5 min nəfər olub. Ümumi əhalinin 95,1 min nəfəri Naxçıvan şəhərində, 117,9 min nəfəri Şərur, 76,5 min nəfəri Babək, 50,3 min nəfəri Ordubad, 47,3 min nəfəri Culfa, 33 min nəfəri Kəngərli, 25,3 min nəfəri Şahbuz, 16,1 min nəfəri isə Sədərək rayonlarında qeydə alınıb.

Əhalinin 230,5 min nəfəri kişilər, 231 min nəfərini isə qadınlardır.

# DGK statistik məlumatlarla bağlı yeni portal hazırlayıb

Dövlət Gömrük Komitəsi (DGK) statistik məlumatlarla bağlı yeni portal hazırlayıb. AZƏRTAC xəbər verir ki, bu barədə Gömrük Komitəsinin sədri Səfər Mehdiyev deyib.

S.Mehdiyev bildirib ki, gömrük statistikasını müasir dövrün tələblərinə uyğun olaraq vizual şəkildə çatdırmaq üçün Dövlət Gömrük Komitəsi tərəfindən yeni portal hazırlanıb. Yaxın günlərdə təqdimatı olacaq portaldan bütün maraqlı tərəflər statistik məlumatları daha rahat yolla əldə edə bilərlər.

# Rusiya daha bir neçə müəssisəmizdən pomidor və alma idxal edəcək

Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidməti martın 3-dən Azərbaycanın daha 19 müəssisəsindən pomidor və 8 müəssisəsindən alma idxalına icazə verib.

AZƏRTAC xəbər verir ki, bu barədə "Rosselxoznadzor" məlumat yayıb. Bildirilir ki, qərar Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyinin sığortası və fitosanitar monitorinqin nəticələri əsasında qəbul edilib.

# Bakı Metropoliteninin bütün infrastrukturu yoxlanılacaq

COVID-19 virusu ilə əlaqədar Nazirlər Kabinetinin qəbul etdiyi qərara müvafiq olaraq sərnişindaşıma fəaliyyətində yaranmış fasilə nəzərə alınmaqla Bakı Metropoliteninin bütün infrastrukturu normal iş rejimi şəraitində yoxlanılacaq.

"Bakı Metropoliteni" QSC-dən AZƏRTAC-a bildirilib ki, martın 6-7-də həyata keçiriləcək tədbirlər çərçivəsində bütün metropoliten xətlərində qatarlar müəyyən edilmiş qrafikə uyğun qaydada hərəkət edəcək. Eyni zamanda hərəkətin təşkili, idarə olunması və nizamlanması, elektrik təchizatı, habelə digər mühəndis-texniki qurğu, avadanlıq və sistemlər adi iş rejimi vəziyyətinə gətiriləcək.

Tədbirin həyata keçirilməsində məqsəd optimal iş rejimi şəraitində metropolitenin infrastrukturunu, o cümlədən qeyd edilən sistem və qurğuların fəaliyyətini texniki-normativ tələblərə uyğun yoxlamaqla qiymətləndirməkdir.

Mühüm məsələlərdən biri kimi, maşinist heyətinin və digər aidiyyəti işçi personalının peşə vərdişlərinin yoxlanılaraq dövrü qiymətləndirilməsi də təmin olunacaq.

Bu tədbirlər Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin daim hazır vəziyyətdə saxlanılmasına xidmət edir. Məlumat üçün onu da bildiririk ki, COVID-19 koronavirus pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq edildiyi müddət ərzində Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti yalnız Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlar əsasında tənzimlənir.

# İtaliyalı tərəfdaşımız

**Azərbaycan və İtaliya arasında iqtisadi münasibətlər getdikcə daha da inkişaf edir. Xüsusilə son illər hər iki ölkənin dövlət başçılarının və nümayəndə heyətlərinin qarşılıqlı səfərləri zamanı bir çox önəmli sənədlər imzalanıb. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi əhəmiyyətə malikdir. Sənəd iki ölkə arasında strateji tərəfdaşlığın daha yüksək səviyyəyə çatdırılmasına xidmət edir.**




## BTC-nin 11 səhmdarından biri - "Eni"

"Cənub qaz dəhlizi" bu iki ölkənin əlaqələrini daha da möhkəmləndirib. Dəhlizin sonuncu seqmenti olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) artıq işə düşüb. Türkiyə-Yunanıstan sərhədindən başlayaraq Yunanıstandan, Albaniyadan və Adriatik dənizinin altından keçən bu kəmər Azərbaycan qazını İtaliyaya çatdırıb. Bu da o deməkdir ki, Azərbaycan və İtaliya gələcək onilliklər ərzində enerji sahəsində daha yaxın tərəfdaş olacaqlar.

İtaliya şirkətləri indiyədək Azərbaycanın həyata keçirdiyi neft-qaz və ixrac layihələrində fəal iştirak ediblər. "Azəri-Çıraq-Günəşli" layihəsi çərçivəsində aparılan tikinti-quraşdırma işlərində "Saypem" şirkətinin sanballı zəhmət payı olub.

"Eni" şirkəti isə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin 11 səhmdarından biridir. "Eni"nin BTC-də 5 faiz iştirak payı var. Şirkət bu layihəyə hələ 2002-ci ildə qoşulub. Həmin il sentyabrın 18-də BTC-nin Səngəçal terminalında keçirilən təməlqoyma mərasimində Ulu Öndər Heydər Əliyev kəmərin səhmdarları sırasında "Eni"nin də adını çəkib.

"Eni" İtaliyanın tanınmış neft-qaz konsernidir. 1953-cü ildən fəaliyyət göstərir və məqsədi enerji ehtiyatlarının hər kəs üçün əlçatan olmasına, hamının onlardan səmərəli istifadə edə bilməsinə dəstək verməkdir.

Bu nəhəng korporasiyanın fəaliyyəti neft və qazın axtarışına, hasilatına, nəqlinə və satışına yönəldilib. Ətraf mühitin qorunması, texniki innovasiyalar, iqlim dəyişikliyinə qarşı və enerji səmərəliliyi uğrunda mübarizə onun başlıca prioritetlərindəndir. Əməkdaşlıq, beynəlmiləlçilik və sabitlik. Şirkətin fəaliyyətini bu amillər də xarakterizə edir.

"Bizım işimiz daim hərəkətdə olmağa, yeni ideyalar irəli sürməyə, səriştəmizin artırılmasına əsaslanır. Biz bunlara həm fərdilikdə, həm də hamımız birlikdə can atırıq. Biz çalışdığımız ölkələrlə uzunmüddətli əməkdaşlığın dəyərli olduğuna inanırıq". Şirkətin çoxsaylı işçiləri belə deyirlər.

"Eni" daim öz əməkdaşlarının təkmilləşdirilməsinə və təhlükəsizliyinə çalışır. Davamlı inkişaf işçilərin, eləcə də şirkətin təmasda olduğu kollektivlərin əmək şəraitinin və yaşayış səviyyəsinin yüksəldilməsinə əsaslanır. Belə ki, yarandığı vaxtdan "Eni" öz əməkdaşları ilə sıx münasibətlər qurub. Onlar da öz növbəsində şirkətə qəlbən bağlıdırlar və burada çalışdıqlarından qürur duyurlar.

Təsadüfi deyil ki, qısa bir zamanda şirkətin rəhbərliyinin təşəbbüsü ilə işçilər üçün qəsəbələr salınmış, yaşayış kompleksləri inşa edilmiş və istirahət bazaları yaradılmışdır. Cəmi bir neçə il ərzində şirkət möhkəm təşkilat strukturu formalaşdırmış, nəticədə əməkdaşlarının sayını sürətlə artırmışdır.

"Eni" dünyanın onlarca ölkəsində təmsil olunub və şirkətin ofislərində 10 minlərlə insan çalışır. Şirkətin müasir tədqiqat laboratoriyalarında və karbohidrogenlərin öyrənilməsi ilə məşğul olan institutunda yüksəkixtisaslı texnoloqlar, digər təcrübəli mütəxəssislər fəaliyyət göstərir .

"Eni" getdikcə öz fəaliyyət sahəsini genişləndirir. Məsələn, bu yaxınlarda o, İtaliyanın "Enel" energetika şirkəti ilə birlikdə yaşıl hidrogen istehsal edəcək. Bunun üçün "Eni" və "Enel" 2022-2023-cü illərdə hər birinin gücü 10 MVt olacaq iki elektrolizator quraşdıracaqlar.

Şirkət digər ölkələrlə çoxdan əməkdaşlıq və tərəfdaşlıq etməyə başlayıb. Belə ki, İtaliyanın enerji resurslarına ehtiyacını təmin etmək məqsədilə "Eni" yarandığı vaxtdan az sonra - 1954-cü ildə ölkənin hüdudlarından kənara çıxmalı oldu. Həmin ilin sonunda birgə müəssisə yaratmaq barədə Misir hökuməti ilə razılıq əldə edildi. Üç il sonra sözügedən razılaşmaya İran da qoşuldu və bu, "Eni"nin neft hasil edən ölkələrlə münasibətində başlanğıc və mühüm bir mərhələ oldu. 1960-cı illərdə şirkət keçmiş SSRİ ilə əlaqələr yaratdı. Beləliklə, onun əməkdaşlıq etdiyi ünvanlar şaxələndi. İllər sonra "Eni" Azərbaycana da gəldi. Onun BTC kimi qlobal bir lahiyədə iştirak etməsi ölkəmizin neft-qaz tarixinə bir səhifə kimi yazılmış və Azərbaycan-İtaliya iqtisadi münasibətlərinin möhkəmlənməsində əhəmiyyətli rol oynamışdır.

Dünyada hökm sürən koronavirus pandemiyası bu əməkdaşlıq münasibətlərinə mane ola bilmir. Azərbaycanın birinci ticarət tərəfdaşı olan İtaliya ilə ticarət dövriyyəsi hər il milyardlarla dollara çatır. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Lakin gələcək illərdə qeyri-neft sektorunda da əməkdaşlıq və tərəfdaşlığın inkişafı üçün potensial, həmçinin məqsəd var. Odur ki, yaxın vaxtlarda Azərbaycanda İtaliyanın daha çox şirkəti fəaliyyətə başlayacaq. Prezident İlham Əliyev bildirib ki, buraya ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, erməni vandallarının dağıtdığı şəhər və kəndlərimizin bərpasına dair böyük planlar da daxildir. Həmin ərazilərdə dost ölkələrin şirkətləri də çalışacaq. Bu ölkələr sırasında İtaliyanın özünəməxsus yeri var. Artıq "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Videokonfrans formatında imzalanan müqaviləyə əsasən, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz İtaliya şirkəti həyata keçirəcək.

İki ölkə arasında əməkdaşlığın daha da genişlənməsi üçün yeni perspektivlər açılır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# MOK-da "Olimpiya gündəliyi - 2020" komissiyasının növbəti iclası keçirilib

Martın 3-də Milli Olimpiya Komitəsində (MOK) "Olimpiya gündəliyi - 2020" komissiyasının növbəti iclası keçirilib.

MOK-dan AZƏRTAC-a bildiriblər ki, komitənin baş katibinin müavini Azər Əliyevin sədrliyi ilə keçirilən iclasda komissiyanın 2020-ci il ərzində gördüyü işlər, Beynəlxalq Olimpiya Komitəsinin (BOK) 2020-2025-ci illər üçün hazırladığı yeni strateji yol xəritəsi, "Tokio-2020" Olimpiya Oyunlarına dair təhlükəsizlik qaydaları, həmçinin komissiyanın 2021-ci il üzrə fəaliyyət planı müzakirə olunub.

BOK-un yeni - "Olimpiya gündəliyi 2020+5" strateji sənədi haqda komissiya üzvlərinə məlumat verən MOK-un Marketinq idarəsinin müdiri Mehman Kərimov qarşıdakı 5 il ərzində Olimpiya hərəkatının beynəlxalq səviyyədə yol xəritəsi hesab olunan sənədin vacib məqamlarından danışıb. M.Kərimov bildirib ki, 15 tövsiyədən ibarət olan sənəd, əsasən, 5 istiqamət üzrə qruplaşdırılıb. Onun sözlərinə görə, "Olimpiya gündəliyi 2020+5" sənədində xüsusi olaraq ölkələr və cəmiyyətlər arasında həmrəyliyin artırılmasına diqqət çəkilib. Bundan başqa, pandemiya şəraitində sürətləndirilən rəqəmsallaşma prosesindən kənarda qalmamaq tövsiyə olunur. Olimpiya dəyərlərini təbliğ etmək üçün rəqəmsal texnologiyalardan güclü bir vasitə kimi istifadə olunması vurğulanıb. Həmçinin strateji sənəddə BMT-nin davamlı inkişaf məqsədlərinə töhfə verilməsinin vacibliyi qeyd olunub. Daha bir istiqamət isə Olimpiya idman qurumlarına etibarlılığın artırılmasıdır. BOK pandemiyanın yaratdığı böhranın aradan qaldırılması ilə bağlı idman hərəkatının daha aktiv iştirakını vurğulayıb.

MOK-un Beynəlxalq əlaqələr idarəsinin müdiri Anar Bağırov "Tokio-2020" Yay Olimpiya Oyunlarının daha təhlükəsiz və uğurla həyata keçirilməsi üçün nəşr edilmiş "Playbook" haqda komissiya üzvlərinə məlumat verib.

Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Fərid Mansurov 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar olaraq bu il idman ictimaiyyətinin qatılacağı onlayn formatda konfrans keçirmək planlaşdırıldığını bildirib. F.Mansurov qadın idmançıların sayının artırılması ilə bağlı daha genişmiqyaslı təbliğat işlərinin aparılması haqda da tövsiyələr verib.

Komissiya üzvləri o cümlədən "İdman hamı üçün" televiziya proqramının 2021-ci il fəaliyyətini də müzakirə ediblər.

# Azərbaycanla İsrailin enerji sistemləri arasındakı əməkdaşlıq məsələləri müzakirə olunub

**"Azərenerji" ASC-nin rəhbəri Baba Rzayevlə İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Corc Dikin görüşü olub.**




Görüşdə İsraillə Azərbaycanın enerji sistemləri arasındakı əməkdaşlıq münasibətləri barədə müzakirələr aparılıb.

İsrailin Azərbaycandakı səfirinin 44 günlük Vətən müharibəsi zamanı, daha dəqiq desək, ötən ilin 23 oktyabr tarixində erməni terrorçuları tərəfindən atılan raketlərin fəsadları ilə tanış olmaq məqsədi ilə Gəncə və Mingəçevir şəhərlərinə səfər etməsi, o cümlədən ermənilərin hədəfə aldığı Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan İES"də olması görüş zamanı xüsusi xatırlanıb.

Görüşdə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən enerji layihələri, o cümlədən xarici investorların layihələrə maraq göstərməsi ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Peyvəndlər bütün ölkələr üçün əlçatan olmalıdır

*Əvvəli 1-ci səh.*

Hazırkı dövrədək ölkəmizdə koronavirus infeksiyasına qarşı peyvənd olunanların sayı 310 mini keçib.

Ölkəmiz Çində istehsal edilmiş "CoronaVac" peyvəndi ilə vaksinasiya aparır. Bu vaksinin 4 milyon dozasının alınması barədə müqavilə bağlanıb. Eyni zamanda Azərbaycan ötən il bütün ölkələr üçün effektli vaksin axtarışını sürətləndirmək, dünyada COVID-19-a qarşı hazırlanmış peyvəndlərə ədalətli əlçatanlığı təmin etmək məqsədilə yaradılan COVAX platformasına ilk qoşulan 50 ölkədən biri olaraq "AstraZeneca", "Pfizer" və "Moderna" peyvəndlərini də almalıdır. Bundan əlavə, ölkəmizə "AstraZeneca" vaksininin göndərilməsi barədə ilk günlərdən Rusiya tərəfi ilə müvafiq sənədlər imzalanıb. Rusiya şirkətləri postsovet məkanında bu vaksinin, həmçinin "Sputnik" vaksininin distribüterləridir. Lakin hələlik bu vaksinlər ölkəmizə daxil olmayıb. Bunun da səbəbi "Sputnik" vaksininin hələlik Rusiyanın daxili ehtiyaclarını təmin etməsi və xarici ölkələrə çox məhdud miqdarda göndərilməsidir.

Hazırda yeni növ koronavirus infeksiyası əleyhinə kütləvi vaksinasiyanın aparıldığı ölkələrin sayı 108-ə çatıb. Lakin burada diqqətçəkən xüsusi bir məqam var. O da COVAX platformasının bu layihəyə üzv ölkələri vaksinlərlə vaxtında təmin etməyə, vaksinlərin ölkələr arasında ədalətlilik və əlçatanlıq prinsiplərinə əsasən bölüşdürülməsinə dair öhdəliyini yerinə yetirə bilməməsidir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə koronavirus pandemiyasına qarşı dünya dövlətlərinin birgə mübarizəsinin və bu sahədə sıx əməkdaşlığın vacibliyini vurğulayıb. Bu mənada vaksinlərin dünya dövlətləri arasında ədalətli bölgüsünün pandemiya ilə mübarizə sahəsində səmərəli əməkdaşlıq üçün vacib komponent olduğunu dilə gətirib. Elə fevralın 26-da yerli və beynəlxalq mətbuat nümyəndələrinin iştirakı ilə dörd saatdan çox davam edən mətbuat konfransında da dövlət başçısı vaksinlərin ölkələr arasında ədalətlilik və əlçatanlıq prinsiplərinə əsasən bölüşdürülməməsinə diqqət çəkib.

Dövlət rəhbəri xatırladıb ki, ötən ilin dekabrında Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyası keçirilib. 150-dən çox ölkə bu təşəbbüsü dəstəkləyib. Həmin sessiyada Prezident İlham Əliyevin səsləndirdiyi tezislərdən biri vaksinlərin dünya ölkələri arasında ədalətli bölgüsü idi. Lakin hazırda görünən mənzərə odur ki, bununla bağlı hətta müttəfiqlər arasında belə ciddi problemlər yaranır. Bu vəziyyət bir daha göstərir ki, həmrəylik, bu bəlaya qarşı birgə mübarizə barədə bütün bəyanatlara baxmayaraq, praktikada tamamilə əks vəziyyət müşahidə olunur: "Bəzi ölkələr onlara lazım olandan 3-4 dəfə çox vaksin alıblar. Misal üçün Kanada. Mən bu barədə demişəm. Belə çıxır ki, kiməsə çatmayacaq. Amma bu onlara maraqlı deyil. Onlar sözdə bərabərlik, insan haqları, demokratiya tərəfdarları kimi çıxış edir, praktikada isə milyonlarla insanın, yoxsul ölkələrdə yaşayan və buna imkanı olmayan insanların hüquqlarını tapdalayırlar. Hətta bu insanların imkanları olsa belə, sadəcə, onlar üçün əlçatan deyil. Sizə açıq deməliyəm, əgər biz bütün istehsalçılarla saziş bağlamasaydıq, - bunu etmişik, - bu gün biz də vaksinsiz qalardıq. Biz "AstraZeneca" vaksinini çoxdan almalı idik. Almamışıq. Artıq bir neçə aydır ki, almamışıq. "Sputnik" vaksinini də almamışıq. COVAX təşəbbüsü üzrə "Pfizer" və "Moderna" peyvəndlərini almalı idik, almamışıq. Özü də bizə onları nə vaxt alacağımızı demirlər. Yaxşı ki, bizim çinli tərəfdaşlarımız öz öhdəliklərini yerinə yetirirlər. Bizim bunu almaq üçün vəsaitimiz var. Bəs vəsaiti olmayanlar nə etsinlər? Bu adamlar ölməlidirlər? Deməli, varlılar özlərini peyvəndləyəcək, bütün istehsalı özlərinə götürəcək, necə deyərlər, elementar insan davranışı qaydalarına tam etinasızlıq göstərəcək, yoxsul ölkələr isə əziyyət çəkməli olacaqlar. Biz hansı bərabərlikdən danışırıq? Mən BMT Baş Assambleyasının xüsusi sessiyasında bu məsələni qaldırmışam və bu gün Qoşulmama Hərəkatı çərçivəsində bu məsələ barədə fəal diskussiya aparırıq. Bir çox ölkələr mənim təşəbbüsümü dəstəkləyiblər. Hazırda əlavə məsləhətləşmələr aparılır və biz əməli işə keçməliyik. Şablon bəyanatlar səsləndirmək kifayətdir, onların arxasında heç bir iş dayanmır. Bunlar artıq hamını bezdirib. Bu məsələ hər bir insana aiddir. Biz bu məsələdə həm milli mənada, həm də bu gün üzvlərinin sayına görə dünyada BMT-dən sonra ikinci beynəlxalq qurumda sədrlik edən ölkə kimi prinsipiallıq göstəririk".

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Mətbuat xidmətinin rəhbəri Aynurə Əhmədova sözügedən məsələ ilə bağlı mətbuata açıqlamasında deyib ki, COVAX təşəbbüsü çərçivəsində ölkələrin müvafiq peyvəndlə təmin olunmasına dair verilən vədə hazırkı dövrədək əməl olunmayıb: "Bu günlərdə COVAX tərəfindən daxil olmuş məktubda Azərbaycanı yaxın zamanda müvafiq vaksinlə təmin edə bilməyəcəkləri bir daha qeyd olunub. Azərbaycan Respublikasının vaksin istehsal edən müxtəlif şirkətlərlə uğurlu əməkdaşlığı nəticəsində ölkəmizə Çin dövlətinin istehsalı olan "CoronaVac" vaksinlərinin gətirilməsi təmin edilib.

Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizə sahəsində Azərbaycanı örnək dövlətlərdən biri kimi göstərir. Bu gün Azərbaycanda vaksinasiya prosesi ilə əlaqədar tələb olunan bütün infrastruktur yaradıldığı halda, ölkəmizə qarşı bu münasibəti yanlış hesab edir, təsisatın məram və məqsədinə zidd olduğunu bildiririk.

COVAX-ın bütün üzv ölkələrlə əməkdaşlığının ədalətli şəkildə davam edəcəyinə, növbəti mərhələdə təxirə salınmadan başqa üzv ölkələrlə bərabər Azərbaycanın da peyvəndlə təmin olunacağına inanırıq".

Hazırda COVID-19-un yeni mutasiya variantlarının meydana gəlməsi ilə peyvəndləmə prosesi daha da sürətlənməli, qısa zamanda peyvəndlər bütün ölkələr üçün əlçatan olmalıdır.

Azərbaycanda isə vətəndaşlar dövlət səviyyəsində həyata keçirilən tədbirlərə dəstək olaraq, o cümlədən vaksinasiyaya qoşularaq ölkəmizdə normal həyata qayıdışı sürətləndirməyə kömək edə bilərlər.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***




# FHN-in əməkdaşları nazirliyin Tibb Mərkəzində COVID-19 əleyhinə peyvənd olunur

**Fövqəladə Hallar Nazirliyi (FHN) əməkdaşlarının COVID-19 virusuna qarşı vaksinasiyası davam etdirilir.**

AZƏRTAC xəbər verir ki, martın 3-də FHN-in Tibb Mərkəzində nazirliyin əməkdaşlarının daha bir qrupu peyvənd olunub.

Fevralın 25-də başlayan vaksinasiya prosesi nəticəsində nazirliyin 300-dən çox əməkdaşı artıq peyvənd edilib.





# Azərbaycanda 313 mindən çox vətəndaş COVID-19 əleyhinə vaksinasiyadan keçib

Martın 2-də Azərbaycan Respublikasında yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 20 min 903 nəfər vaksinasiya olunub.

AZƏRTAC koronavirusinfo.az saytına istinadla xəbər verir ki, hazırkı dövrədək ölkəmizdə 313 min 582 nəfər COVID-19 əleyhinə qarşı peyvəndlənmə prosesində iştirak edib. Vaksinasiya respublikamızın bütün rayonlarında uğurla davam edir.


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2021-ci il üçün

### *kotirovka sorğusu elan edir*

Dəftərxana və təsərrüfat mallarının satın alınması.

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 15 mart 2021-ci il saat 13:00-dək qəbul olunur.

Tələb olunan sənədlər:

- *nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);*
- *kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında məlumat (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);*
- *vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərən təşkilatın kommersiya qurumunun dövlət reyestrindən çıxarışlarının və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması barədə məlumat (malgöndərən təşkilat tərəfindən hazırlanır);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*

**Ünvan: AZ1100 Bakı şəhəri, Yasamal rayonu, Nazim Hikmət küçəsi, 27.**
**Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə.Telefon: (+99451) 207-59-12.**

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Quba şəhərində Soyqırımı Memorial Kompleksi Tədbirinin təşkil olunması (222920) xidməti üzrə

### *kotirovka sorğusu elan edir*

Maraqlanan təşkilatlar 0233353707 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 09.03.2021-ci il saat 15:00-dək qəbul olunur.

**Əlaqələndirici şəxs: Ağayev Ayaz Əlisafa oğlu**
**Ünvan:Quba şəhəri, N.Nərimanov, 1A. soyqirim.az email:office@soyqirim.az**

***Tender komissiyası***



## Bakı Şəhər İcra Hakimiyyəti "Bakı Şəhər İşığı" Elektrik Şəbəkə Müəssisəsi

### *açıq tender elan edir*

Tender iştirakçıları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, aşağıda göstərilən LOT üzrə tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

**LOT-1:** İşıqlandırma üçün lazımi mal-materialların alınması

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 1000 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından tenderin Əsas şərtlər toplusunu ala bilərlər. Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

**İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:**

**Təşkilat: "Baki Şəhər İşığı" Elektrik Şəbəkə Müəssisəsi**
**Beynəlxalq Bankın Yasamal filialı**
**Kod: 805562**
**VÖEN: 9900001881**
**M/h:AZ03NABZ01350100000000002944**
**SWIFT BIK: IBAZAZ2X**
**H/h: AZ93IBAZ38010019449667485216**
**VÖEN: 9900013961**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək istəyənlər 01.04.2021-ci il saat 14:00-dək aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *tenderin Əsas şərtlər toplusuna əlavə olunmuş standart formalara uyğun müvafiq məlumatlar.*

İddiaçılar LOT üzrə tender təkliflərini **09.04.2021-ci il saat 14:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalına yerləşdirməlidirlər. İddiaçıların təklifləri **10.04.2021-ci il saat 14:00-da** açılacaqdır.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Samir Həsənov**
**Telefon: (012) 565-49-80**

***Tender komissiyası***



## Baş Mil-Muğan Kollektoru İstismarı İdarəsi 2021-ci il üçün nəzərdə tutulan "Baş Mil-Muğan Kollektorunun PK264+10 piketində körpünün əsaslı təmiri işlərinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Qurban Rzayev
Ünvan: Salyan rayonu, Bəydili kəndi
e-mail: bas.mil-mugan.kii@mail.ru Tel: (050) 332 78 70
**İştirak haqqı: LOT -1: 60 (altmış) manat**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Azərbaycan Respublikası Meliorasiya Və Su Təsərrüfatı ASC-nin Baş Mil-Muğan Kollektoru İstismarı İdarəsi**
**Hesab: AZ78CTRE00000000000002353103**
**VÖEN: 7000144681**
**Bank: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**
**Büdcə təsnifatının kodu: 142330**
**Büdcə səviyyə kodu: 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizii həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox) qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 aprel 2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə **12 aprel 2021-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **13 aprel 2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, təkliflərin qiymətləndirilməsi və digər bütün prosedurlar elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## “ASK Ayaqqabı Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyəti
### *elektron açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: LOT üzrə iştirak haqqı 100 (bir yüz) manat.

LOT-1: Qoyma içlik

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu e-tender.gov.az Portalından əldə edə bilərlər.

**Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Binəqədi filialı**
**SWIFT Code: IBAZAZ2X**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**Kod: 805584**
**Bankın VÖEN-i: 9900001881**
**Alan: “ASK Ayaqqabı Fabriki” MMC**
**Alanın hesabı: H/H AZ11IBAZ40040019446118105202**
**VÖEN: 2004900751**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin ən azı 1 (bir) faizi həcmində bank təminatını təsdiq edən sənəd (bank təminatı zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
- *iddiaçının son bir il ərzində (əgər daha az müddətdə fəaliyyət göstərirsə, bütün fəaliyyəti müddətində) maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti;*
- *malların təchizatı sahəsində təcrübəsinə dair analoji işlər;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (AR Dövlət Statistika Komitəsindən arayış).*

İddiaçının tender təklifindəki qiymət malların qiymət dəyərindən başqa, nəqliyyat, vergi, sığorta və digər xərclər nəzərə alınmaqla göstərilməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **06 aprel 2021-ci il saat 14:00-a** qədər, bank zəmanəti və tender təklifini isə **14 aprel 2021-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların tender təklifləri **15 aprel 2021-ci il saat 14:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Tenderin keçirilməsi ilə bağlı əlavə məlumat əldə etmək üçün “ASK Ayaqqabı Fabriki” MMC-nin əməkdaşı Səbinə Xanəhmədova (tel: +994 412-46-26, daxili 26) ilə əlaqə saxlamaq mümkündür.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ
### *açıq tender elan edir*

Fondun Aparatının inzibati binasının 1-ci mərtəbəsində yerləşən holun əsaslı təmir işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 400.00 (dörd yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142330**
**Büdcə səviyyəsinin kodu : 4**

**“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən, tenderdə iştirak haqqı geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir)*** *və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019 və ya 2020-ci il üzrə);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat* ***(Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olmasını təsdiq edən sənəd.*

Satınalan təşkilat ilə elektron satınalmanın iştirakçıları və ya onların özü arasında yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əlaqə saxlanılır.

Dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə Azərbaycan Respublikasında keçirilən elektron satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan iddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30.03.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07.04.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **08.04.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 15 yanvar 2021-ci il tarixli sayında Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən “Dizayn-Təmir-Tikinti sahəsi layihəsi üzrə daxili bazar araşdırmasının aparılması üzrə məsləhət xidmətinin satın alınması” məqsədilə elan edilmiş təkliflər sorğusunda **“SageSolutions” MMC** qalib elan olunmuşdur.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması” haqqında Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2021-ci il tarixli 1251 nömrəli fərmanına əsasən, Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik ləğv edilmişdir.

Nazirlər Kabinetinin 22 yanvar 2021-ci il tarixli 65s nömrəli sərəncamı ilə yaradılmış ləğvetmə komissiyasına tapşırılmışdır ki, Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin ləğvi ilə bağlı məsələləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həll etsin və işini bir ay müddətində yekunlaşdırsın.

Qeyd olunanları nəzərə alaraq bütün debitor və kreditorlardan xahiş olunur ki, bir ay müddətində agentliklə son haqq-hesablarının yekunlaşdırılması üçün tədbir görsünlər.

Bu müddətdən sonra agentliyə daxil olan müraciətlərə baxılmayacaqdır.

***Agentliyin direktorluğu***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 15 yanvar 2021-ci il tarixli sayında Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən “Balıq məhsullarının istehsalı və satışı layihəsi üzrə daxili bazar araşdırmasının aparılması” üzrə məsləhət xidmətinin satın alınması məqsədilə elan edilmiş təkliflər sorğusunda **“SageSolutions” MMC** qalib elan olunmuşdur.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş
### “Samir” firmasının kreditorlarının nəzərinə

“Samir” firması (VÖEN: 1500381791) yenidən təşkil edilmiş “Ultimate Solutions” Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN: 1404154961) qoşulmuşdur.

“Samir” firmasının hüquqi varisliyi “Ultimate Solutions” Məhdud Məsuliyyətli Cəmiyyətinə keçmişdir.

***Rəhbərlik***

# “Azercell” müştəri təcrübəsinin idarə edilməsinə görə yeni mükafat qazanıb

Daha bir beynəlxalq ISO - Keyfiyyətin İdarə Olunması standartı lider mobil operatorun abunəçilərinə göstərdiyi yüksək xidmət səviyyəsinin növbəti göstəricisidir

**Müştəri xidmətləri sahəsində ölkəmizdə örnək olan “Azercell Telekom” MMC ISO 10004:2018 : Keyfiyyətin idarə olunması/Müştəri məmnuniyyətinin monitorinqi və ölçülməsi üzrə təlimatlar beynəlxalq standarta uyğunluq üzrə sertifikasiya auditini başa vuraraq məhz həmin standart üzrə ilk sertifikatını əldə etdi.**

“Büro Veritas Azeri” MMC tərəfindən aparılmış audit zamanı müştəri məmnuniyyətinin ölçülməsi və monitorinq prosesi haqda ətraflı məlumat verildi. Buraya prosesin ümumi əhatə dairəsi, müştəri məmnuniyyətinin ölçülməsinin müxtəlif üsulları, əldə edilən nəticələr əsasında müvafiq tədbirlərin görülməsi və proseslərin, eləcə də xidmətlərin təkmilləşdirilməsində məlumatın istifadə edilməsi və s. kimi tərkib hissələr daxil idi.

Müasir texnologiyaların və biznes həllərin köməyi ilə müştərilərinin işini asanlaşdırmağı hədəfləyən “Azercell” hazırda öz abunəçilərinə bütün mümkün platformalar üzərindən xidmətləri təqdim edir. Şirkət sosial şəbəkələr üzrə müştərilərə göstərilən xidmət səviyyəsi, müraciətlərin cavablandırılması üzrə dəfələrlə beynəlxalq sertifikatlara layiq görülüb.




Hətta COVID-19 pandemiyası ilə əlaqədar tətbiq olunan sərt karantin rejimində “Azercell” Müştəri Xidmətləri fasiləsiz olaraq onlayn şəkildə fəaliyyət göstərib, yaşı 65-dən yuxarı olan abunəçilərə isə Səyyar Müştəri Xidmətləri tərəfindən pulsuz xidmət edilib. “Azercell”in istifadəyə verdiyi “Kabinetim” tətbiqi müştəri məmnuniyyətinin artırılması, şikayətlərin dərhal həlli istiqamətində atılmış böyük addımlardan biri olub.

ISO (Beynəlxalq Standartlaşdırma Təşkilatı) ümumdünya milli standartlar qurumları (ISO üzv qurumları) federasiyasıdır. İndiyədək federasiya tərəfindən idarəçilik, texnologiyalar və biznes sahəsində əmtəələrə, xidmətlərə və müsbət təcrübələrə dair minlərlə standart müəyyənləşdirilib.

Qeyd edək ki, müştərilərə göstərdiyi xidmət keyfiyyətinin ölçülməsi ilə bağlı şirkət daha öncə ISO 10002:2018 : Keyfiyyətin İdarə Olunması /Müştəri Məmnuniyyəti /Müəssisələrdə Şikayətlərə Baxılmasına dair təlimatlar standartına uyğunluq üzrə sertifikat və ISO 18295:2017 : Əlaqə Mərkəzlərinin idarə edilməsi sahəsində uyğunluq sertifikatına layiq görülüb.


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## “ASK Ayaqqabı Fabriki” MMC
### “Pambıq parçalar”ın təkliflər sorğusu üsulu ilə *satın alınmasını həyata keçirir*

Əlavə məlumat almaq üçün +994(12) 412-46-26 telefon nömrəsi ilə və ya sabina.khanahmadova@ask-boot.com elektron ünvanına müraciət edə bilərsiniz.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər **15 mart 2021-ci il saat 15:00-a** kimi qəbul olunur.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə əzizi

**ŞURA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə əzizi

**ŞURA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin İşlər İdarəsinin kollektivi iş yoldaşları

**OSMAN NAMAZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) rəhbərliyi və kollektivi Azərbaycanın Xalq artisti Fəxrəddin Manafova həyat yoldaşı

**VAHİDƏ SADIQOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Xalq artisti Fəxrəddin Manafova həyat yoldaşı

**VAHİDƏ SADIQOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyevə əzizi

**ŞURA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Aviasiya Akademiyasının əməkdaşı Şöhlət Kərimov Mərkəzi Klinika Xəstəxanasının baş həkimi Kamran Musayevə qızı

**DİLAYIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5237**
**Sifariş 423**
**Qiyməti 40 qəpik**